# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 76 (3400) Cümə axşamı / 9-15 sentyabr 2021-ci il Qiymәti 40 qәpik


MÜSAHİB

## "Poladla Şuşada elitar musiqi məktəbi açmaq istəyirik"



**Fərhad Bədəlbəyli,**
Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru, professor

***44 günlük Vətən Müharibəsindəki zəfər Azərbaycan torpaqlarının ruhunu özünə qaytardı. Bu gün Qarabağımız yenidən bərpa olunur. Proses cəmiyyətin böyük mənəvi, psixoloji, maddi imkanların vəhdəti, dövlətin yeni iqtisadi inkişaf strategiyası əsasında davam edir. Budur, Bakı-Füzuli Beynəlxalq Hava limanından səmaya qalxan sərnişin daşıyan təyyarəmiz Qarabağ havalarından Azərbaycana, onun dostlarına "Xoş gəldin!" dedi. İşğaldan azad olunan ərazilərimizdə yollar çəkilir, Böyük Qayıdışa hazırlıqlar gedir.***

*Onlarla sonuncu görüşümüzdə dedim ki, sizə inanmıram, biz Şuşanı sizinlə birlikdə görməyəcəyik*

Səh. 2

# Səhiyyə sistemində qarışıqlıq

***Mütəmadi olaraq mətbuatda səhiyyə sisteminə nəzarət edən qurumlar arasında səlahiyyət davasının getdiyinin şahidi oluruq. Bir səlahiyyətin TƏBİB-dən alınıb Səhiyyə Nazirliyinə, yaxud da əksinə verilməsi ilə bağlı məlumatlarla qarşılaşırıq. Tez-tez edilən belə dəyişikliklər vətəndaşların çaş-baş qalmasına səbəb olur. Bir məsələdən TƏBİB-in, İcbari Tibbi Sığorta Agentliyinin, yoxsa Səhiyyə Nazirliyinin məsul olduğunu ayırd etmək demək olar ki müşkülə çevrilir. Hafta.az-ın əməkdaşı ölkənin səhiyyə sistemində yaranmış bu xaos vəziyyətini Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ilə müzakirə edib. Müsahibəni sizə təqdim edirik:***



Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi
@its.gov.az - Dövlət təşkilatı

***- Musa müəllim, sizcə səhiyyə sahəsində müşahidə etdiyimiz hazırkı qarışıqlığın əsas səbəbləri nələrdir?***

- Nəzərinizə çatdırım ki, İcbari Tibbi Sığortaya keçidlə əlaqədar olaraq İTS və TƏBİB kimi bəzi yeni qurumlar yaradıldı. Beləcə Səhiyyə Nazirliyinin funksiyalarının böyük bir hissəsi həmin qurumlara verildi. Prinsipcə, bu olduqca normaldır. TƏBİB keçid dövrü üçün nəzərdə tutulan orqandır. Təəssüflər olsun, İcbari Tibbi Sığortaya keçid dövrü koronavirusun başlanması ilə üst-üstə düşdü. Bu səbəbdən müəyyən qədər qarışıqlıq baş verdi. Hazırda səlahiyyətlərin tam bölgüsü əhalinin böyük bir kütləsinə məlum deyil. Elə sizin də dediyiniz kimi, indi səhiyyə sistemində qarışıqlıq var. Hesab edirəm ki, bu pandemiya ilə əlaqədar məsələdir.

***- Sizcə bütün tibbi xidmətləri vahid mərkəzdə cəmləşdirmək daha yaxşı olmazdı? Həm də beləcə yaranmış anlaşılmazlıqlara son qoyulardı.***

- Fikrimcə bütövlükdə "yük"ü Operativ Qərargah öz üzərinə götürməlidir. Səlahiyyət bölgüsünü də Operativ Qərargah müəyyənləşdirib, vaxtaşırı əhalini bu barədə məlumatlandırmalıdır.

***- Bəs onda TƏBİB, İcbari Tibbi Sığorta Agentliyi və Səhiyyə Nazirliyinin vəzifələri nələr olur?***

- Pandemiya və ya hər hansı epidemiya şəraiti fövqaladə vəziyyət sayılır. Fövqaladə vəziyyət rejimində işləyəndə adi həyat tərzindən fərqli situasiya yaranır. Fikrimcə belə bir qarışıqlığın olması əhalini haqlı olaraq narahat edir. Bu gərginliyin aradan qaldırılması üçün, həm TƏBİB, həm İcbari Tibbi Sığorta Agentliyi, həm də Səhiyyə Nazirliyi gecə-gündüz çalışmalıdırlar. "Bu mənim səlahiyyətimdə deyil", "Bu məndən alınıb" kimi arqumentlərin heç bir faydası yoxdur.

***- Musa müəllim, pandemiya səbəbindən həm Təcili Tibbi Yardımın, həm də xəstəxanaların işinin çətinləşdiyi hamıya məlumdur. Sıxlıq və uzun növbələr əhalini bir qədər də gərginləşdirir. Sizcə bunun qarşısını almaq mümkün olmaz?***



**Musa Quliyev,**
Milli Məclisin deputatı

*"Bu mənim səlahiyyətimdə deyil, Bu məndən alınıb kimi arqumentlərin heç bir faydası yoxdur*

- Bu yaxınlarda sürətli vaksinasiya ilə bağlı güclü tədbirlər həyata keçirildi. İnsanlarda maarifləndirmə işləri aparıldı və s. Bu zaman da əhali vaksinasiya üçün kütləvi şəkildə poliklinikalara axışdılar. Nəticədə uzun növbələr yarandı. Bunu isə Operativ Qərargah öncədən nəzərə almalı idi. Planlaşdırılma aparılmalı idi ki, qısa müddətdə sürətli vaksinasiyanı həyata keçirmək mümkün olsun. Əgər insanlar peyvənd üşün müraciət edirlərsə, onlar xəstəxanada gözləməli deyillər.

Qoy vətəndaşa 1 yox 5, hətta 20 kabinet xidmət göstərsin. Bunun üçün kifayət qədər mütəxəssislərimiz də var. Lazımdırsa özəl sektorla müqavilə bağlansın və özəl klinikalar da bu işə cəlb edilsinlər. Hətta səyyar klinikalar belə yaratmaq olar. Bizim belə təcrübələrimiz də var. Burada kimlərinsə bəhanə gətirməyinə heç bir əsas yoxdur.

***- Bu işə özəl sektoru cəlb etmək bizə nələr vəd edir?***

- İndi onsuz da insanlar arasında həm pandemiya xofu, həm dərman çatışmazlığı, həm də evdə müalicə zamanı alınan baha dərmanlardan irəli gələn gərginliklər var. Belə halların qarşısını almaq üçün lazımi addımlar vaxtında atılmalıdır. Mən əvvəldən də demişəm ki, bu işə özəl sektoru cəlb etməli idik. İcbari Tibbi Sığorta Agentliyi belə klinikalara müəyyən qədər pul ödəsə, gerisini də vətəndaş özü düzəldə bilər. Bu daha yaxşıdır, nəyinki günlərlə poliklinikalarda, xəstəxanalarda növbə gözləmək, koridorlarda yatmaq...

***- Görürük ki, Təcili Tibbi Yardım xidmətinin də işi xeyli ləngiyir. Son olaraq bütün bu problemlərin həlli haqqında hansı təklifləri verə bilərsiniz?***

- Fikrimcə xaoslu situasiyada Operativ Qərargah bütün məsuliyyəti öz üzərinə götürməlidir. TƏBİB, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyinin kordinasiya mərkəzi Operativ Qərargah olmalıdır. Təcili Tibbi Yardım xidmətini də qınaya bilmirəm. Elə özüm gündə bəlkə 20 dəfə onlara zəng edirəm. Mənə bir həkim və komitə sədri olaraq vətəndaşlar bununla bağlı narazılıqlarını söyləyirlər. Görürəm ki, TTY çətin vəziyyətdə qalır. Xidmətin həm maşın sayı, həm də komandası normal vəziyyət üçün nəzərdə tutulub. Təcili Yardım maşını adi maşın da deyil ki, əvəzinə başqa maşın yönləndirilsin. Gərək ki içində xüsusi yardım avadanlıqları və mütəxəssislər olsun. Bundan başqa, vətəndaşlar arasında da maariflәndirmə düzgün aparılmalıdır. Elə hər burnu axan, bir balaca qızdırması qalxıb öskürən təcili yardıma zəng vurur. Çeşidləmə mərhələsində ailə həkimləri önə çıxmalı idi. Bu halda həm təcili yardımın yükü azalardı, həm də effektivliyi çox olardı.

**Banu**

BİZİM SƏFİR



**Mustafa Kamal Bəyazbayram,**
Şimali Kipr Türk Respublikasının ölkəmizdəki təmsilçisi

■ Mən ilk dəfə Bakıda çalışdığım dönəmdə tədbirlərdə ...Türkün bayrağını Qarabağda asacağıq kimi mahnıları dinləyərdik...

■ Diplomatiyada belə bir qayda var: əmin addımlarla yavaşca irəliləmək...

■ Adada iki bərabərhüquqlu, azad dövlət tanınmalı və yan-yana yaşamalıdır...

Səh. 3

GÜNÜN FOTOSU...



**Kabildə qadınların etiraz aksiyası...**

GÜNÜN SİTATI

*"Qarabağ müharibəsi region üçün çətin çağırış idi. İnanıram ki, bu çağırış yeni fürsətlərə çevriləcək"*



**İrakli Qaribaşvili,**
Gürcüstanın Baş naziri

KARİKATURA




**Mü ştammı gəlir!..**

## Milli Məclisin sədrinə müraciət edəcəyik

**Pənah Hüseyn,**
Xalq Partiyasının sədri

Söhbətlər var ki, Azərbaycanda siyasi partiyaların yaranması ağırlaşa bilər.

Səh. 5

STATİSTİKA



**■ Avqust ayı üzrə diplomların tanınması ilə bağlı 281 müraciətçinin 208-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib. 73 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.**

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiya Federasiyasından 94, Ukraynadan 72, Türkiyə Respublikasından 62, Gürcüstandan 18, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 8, digər ölkələrdən isə 27 müraciətin olduğu müşahidə olunur.



Səh. 5

# Bakının Moskvadan tələbi

**PREZİDENTİN İŞ GÜNÜ**

# Təbrik



**Prezident İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmona təbrik məktubu göndərib. Məktubda deyilir:**

"Hörmətli Emoməli Şərifoviç, Tacikistan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Müstəqillik illərində Sizin müdrik rəhbərliyiniz altında ölkəniz sabit inkişaf yolu ilə irəliləyərək dövlətçiliyin möhkəmlənməsi, sosial-iqtisadi tərəqqi sahəsində nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə nüfuz qazanmışdır. Azərbaycan Respublikası dost ölkəmizin bu uğurlarına ürəkdən sevinir.

Biz xoş və zəngin ənənələrə əsaslanan Azərbaycan-Tacikistan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət veririk. Ölkələrimiz arasında daim genişlənən yüksək səviyyəli siyasi dialoq, qarşılıqlı səfərlər, iqtisadi-ticari sahələrdə faydalı əməkdaşlıq çoxşaxəli əlaqələrimizi xarakterizə edən başlıca amillərdəndir.

Əminəm ki, ənənəvi dostluq münasibətlərimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin daha da genişləndirilməsi yolunda birgə səylərimiz bundan sonra da uğurla davam etdirəcəyik.

Hörmətli Emoməli Şərifoviç, belə bir əlamətdar gündə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Tacikistan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Laçındakı təlimlər bölgədə sabitliyə xidmət edir



**"Beynəlxalq sərhədləri çərçivəsindəki ərazisində müxtəlif təlimlər keçirmək hər bir dövlətin suveren hüququdur".**

Bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib. O bildirib ki, Azərbaycan bu günədək ərazisində çoxsaylı hərbi təlimlər, o cümlədən tərəfdaş ölkələrin iştirakı ilə birgə təlimlər keçirib. "Laçın rayonunda başlanılan birgə taktiki təlim də məhz bu qəbildən olan və bölgədə sabitliyin təmin olunmasına xidmət edən addımdır. Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, regional sülhə və təhlükəsizliyə təhdid dövlətin öz ərazisində hərbi təlim keçirməsi yox, Ermənistanın uzun illər ərzində tətbiq etdiyi kimi digər dövlətin ərazilərinə iddialar irəli sürmək, hərbi təcavüz siyasəti yürütmək, digər dövlətin ərazilərini işğal altında saxlamaq və nəhayət, beynəlxalq hüququn prinsiplərini tapdalamaqdır.

Əgər Ermənistan bölgədə sülh və təhlükəsizliyin təmin olunmasını istəyirsə, o zaman özünün də imza atdığı öhdəliklərin icrasına riayət etməlidir", - deyə L. Abdullayeva qeyd edib. Xatırladaq ki, Ermənistan XİN Laçın rayonunda Azərbaycan və Türkiyə birgə təlimlərinin keçirilməsini 10 noyabr 2020-ci il üçtərəfli bəyanatına uyğun olmadığını və sülh və təhlükəsizliyə xələl gətirdiyini iddia edib.

# Rusiyanın Fövqəladə Hallar Naziri həlak oldu

**Rusiyanın Fövqəladə Hallar Nazirliyi (FHN) nazir, ordu generalı Yevgeni Ziniçevin ölümü ilə bağlı təfərrüatları açıqlayıb.**



Rusiyanın fövqəladə hallar naziri Norilskdə tanınmış kinorejissor Aleksandr Melnikin həyatını xilas edərkən həlak olub.

Belə ki, Aleksandr Melnik Şimal dəniz yolu və Arktikanın inkişafına həsr olunmuş, özünün yeni sənədli filminin çəkilişlərinə yer seçimi üçün Norilskə gəlib. A. Melnik də həyatını itirib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
**Təsisçi və baş redaktor: Sevinc Seyidova**
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
**Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000**
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Poladla Şuşada elitar musiqi məktəbi açmaq istəyirik"

## Gündəm

***44** günlük Vətən Müharibəsindəki zəfər Azərbaycan torpaqlarının ruhunu özünə qaytardı. Bu gün Qarabağımız yenidən bərpa olunur. Proses cəmiyyətin böyük mənəvi, psixoloji, maddi imkanların vəhdəti, dövlətin yeni iqtisadi inkişaf strategiyası əsasında davam edir. Budur, Bakı-Füzuli Beynəlxalq Hava limanından səmaya qalxan sərnişin daşıyan təyyarəmiz Qarabağ havalarından Azərbaycana, onun dostlarına "Xoş gəldin!" dedi. İşğaldan azad olunan ərazilərimizdə yollar çəkilir, Böyük Qayıdışa hazırlıqlar gedir. Şuşamız yenilənir, məhəllələri bərpa olunur, gözəlləşir. Hafta.az-a müsahibə verən Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəyli ilə Şuşadan, mədəniyyət paytaxtımızın bu günündən danışdıq.*



**Fərhad Bədəlbəyli,**
Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının rektoru, professor

***- Fərhad müəllim, təkcə Şuşanın azadlığı ayrıca bir qəhrəmanlıq dastanıdır. Və Şuşanın azad olunduğu gün heç şübhəsiz ki, orda Üzeyir Hacıbəyovun üvertürası, "Cəngi"si səsləndi və onun sədaları dağlardan çəkilməyib. Bəs bu gün o abidələri, evləri dağıdılmış, bir az küskün, eyni zamanda xoşbəxt Şuşamızda hansı musiqi notları səslənir?***

- Məncə biz böyük bir qələbə çalsaq da, hələ də nə baş verdiyini tamlığı ilə dərk edə bilmirik. Bu, faktiki olaraq 200 il ərzində əldə etdiyimiz ilk qələbəmizdir və inanıram ki, axırıncı olmayacaq. Cənab Prezident də çıxışında demişdi ki, bizim aslan kimi döyüşən əsgərlərimiz var. Müzəffər ordumuz doğrudan da aslanlar kimi döyüşdülər. Əlbəttə ki, biz bütün konsertlərimizdə, tədbirlərdə ilk növbədə şəhidlərimizi böyük ehtiramla anır, qazilərimizə cansağlığı arzulayırıq. O əsgərlərimiz hələ 1992 ci ildə uşaq idilər, onların 1-2 yaşları var idi. Onlar 28-30 il ərzində düşmənə olan nifrətini, qəzəb hissinin axırıncı notunu Şuşada qoydular. Mən Şuşada 3 dəfə olmuşam. Bu mənim ən xoşbəxt günlərimdir. Hər dəfə Cıdır düzünə gedib ordan aşağı baxanda, düşünürdüm ki, bir insan bu qayalarla yuxarı necə dırmaşa bilər, özü də tüfəngini, minamyotunu, yaralı yoldaşını çiyinlərinə alaraq... Biz bu qəhrəmanlığı ancaq "Rembo" filmində görmüşük. Şuşada baş verənlər isə film deyil, bu real həyatdır, həqiqətdir. Və məncə bütün universitetlər, institutlar Şuşa Əməliyyatını bir dərs kimi təhlil edib öyrənməlidirlər.

Yəni bizim əsgərlərimizdə çox böyük döyüş ruhu var. Ona görə biz qalib gəldik. Əlbəttə belə də olmalı idi, çünki bu torpaqlar bizim dədə-baba yurdumuzdur, illərdi işğal altında qalmışdı. Dünya bunu görmürdü.

Mən Qarabağ icmasının üzvü idim. Biz Minsk Qrupu ilə azı 10-15 dəfə görüşmüşük. Hər dəfə soruşurdum, bəs mən Şuşanı nə vaxt görəcəyəm. Orda bir polyak var idi, elə hey deyirdi ki, "mütləq görəcəksiz, mütləq görəcəksiz"....Onlarla sonuncu görüşümüzdə dedim ki, sizə inanmıram, biz Şuşanı sizinlə birlikdə görməyəcəyik. Və sağ olsun cənab Prezident, sağ olsun bizim ordumuz, onlar öz sözünü dedi. O ki qaldı Şuşanın bugünkü musiqisinə əlbəttə ki, biz Cıdır düzündə "Cənlibel" xorunu da eşidəcəyik. Hazırda "Koroğlu" operasından üverturanı eşidirik, "Cəngi"ni eşidirik. Onunla yanaşı "Xarıbülbül" festivalında bütün bəstəkarların -Qara Qarayevin, Fikrət Əmirovun, Tofiq Quliyevin, Rauf Hacıyevin əsərləri səsləndi. Festival ən yüksək səviyyədə keçdi.

***- Şuşanın özü bir poeziyadır, bir musiqidir... Və artıq Şuşa "Xarıbülbül"-dən sonra Vaqif Poeziya Günlərinə start verib. Bu Günün əhəmiyyəti nədir, dünyaya hansı mesajdır?***

- Cənab Prezident xüsusi sərəncamla Şuşanı Mədəniyyət Paytaxtı elan elədi. Bu hər kəsə bir mesajdır. Qonşulara da, düşmənlərə də, dostlara da... Biz Vaqifin məqbərəsi yenidən bərpa olunandan sonra açılışında iştirak etdik. Mən hələ 1982-ci ildə Poladla birlikdə Vaqif məqbərəsinin ilk açılışında iştirak etmişəm. Yadımdadır, onda lap cavan idik. Qış idi, Şuşaya qar yağırdı. Mən o tədbirə atamla getmişdim. İndi bu gözəl məqbərəni ən yüksək səviyyədə bərpa ediblər. Vaqifin məqbərəsi daha gözəl olub. Orda da cənab Prezident çıxış elədi ki, bu bizim torpağımızdır, biz onu qoruyub saxlamalıyıq.

Mən bu gün Şuşada necə böyük bərpa işlərinin getdiyini görürəm. Cənab Prezident də orda olarkən Üzeyir bəyin ev muzeyinin, məşhur general Səməd bəy Mehmandarovun evinin bərpa məsələsini önə çəkmişdi. Mehmandarovun orada gözəl bir evi var, ermənilər onu da çox pis günə salıblar. İndi biz onu da bərpa edirik. Yəni, bu gün Şuşada o tarixi ab-hava bərpa edilir. Məqsəd odur ki, Şuşa həqiqətən də mədəniyyətlə bağlı olan paytaxt olsun. Məsələn, biz Üzeyir bəy günlərini Bakıda keçirdik. Amma onu mütləq Şuşada keçirməliyik. Yaxud Füzulidə, Kəlbəcərdə... Rayonlarımızda mədəniyyət mütləq öz sözünü deməlidir. Rayonlarımızda mədəniyyət evləri var, çoxu boş qalır. Bizim ən böyük silahımız musiqidir, ədəbiyyatdır və biz bu silahlardan səmərəli istifadə eləməliyik. Amma rayonlarda heç bir tədbirlər görünmür. Halbu ki, indi rayonlarda gözəl otellər, gözəl mədəniyyət evləri var, Heydər Əliyev Fondunun xüsusi binaları var. Yəni yerli idarəedici orqanlar xüsusən də mədəniyyətdə aktiv olmalıdır.

***- Mədəniyyət və musiqimizdən söz düşmüşkən, bu il Bakı Musiqi Akademiyasına qəbul imtahanları necə keçdi, nəticələr nəyi göstərir. Azərbaycana, Qarabağa, bütövlükdə dünyaya yeni Üzeyirlər, Fərhadlar bəxş etmə şansı nə qədərdir?***

- Üzeyir bəy Təkdir. Üzeyirin adı gələndə, heç kimin adı onun yanında olmamalıdır. Mən sizə deyim ki, bizim çox istedadlı uşaqlarımız var. Mənim xoşuma gələn odur ki, uşaqlarımız nəinki ancaq fortopiano, həm də nəfəs alətlərində-klarnet, fleyta, tranbon və bu kimi nadir alətlərdə çalmaq istəyirlər. Bu çox vacibdir. Çünki simfonik orkestrdə nadir alətlərdə çalmaq tələb olunur. Onlar olmasa, "Koroğlu"nu kim ifa edəcək, yaxud Qara Qarayevin əsərlərini, Fikrət Əmirovun simfonik muğamlarını kim ifa edəcək. Ona görə də mən çox razıyam ki, son zamanlar ancaq fortopianoda yox, digər nadir alətlərdə də çalmaq istəyən gənclər akademiyaya gəlib. Məni narahat edən odur ki, nadir alətlər üzrə ifaçılar daha da çox olsun.




> Onlarla sonuncu görüşümüzdə dedim ki, sizə inanmıram, biz Şuşanı sizinlə birlikdə görməyəcəyik

> İndi bizimlə bizi sevməyən qüvvələr arasında müharibə gedir

***- Fərhad müəllim, Üzeyir Hacıbəyov milli irsinin Şuşada inkişafı baxımından orada Konservatoriyanın, yaxud bir musiqi məktəbinin açılması nəzərdə tutulurmu?***

- Mən ümidvaram ki, orda gözəl bir musiqi məktəbi olacaq. Musiqi məktəbi orda mütləq olmalıdır. Çünki Şuşa musiqi ilə sırf bağlı şəhərdir. Şuşa elə bir şəhərdir ki, orda festivallar, simpoziumlar keçirilməli, xarici ölkələrdən turislər gəlməlidir. Yəni şəhər yaşamalıdır, biz onu ən yüksək səviyyədə bərpa edəcəyik. Biz Poladla birlikdə Şuşada elitar bir musiqi məktəbinin açılması barədə fikirləşirik. Bu barədə öz təkliflərimizi vermişik. İndi görək necə olacaq. Bilirsiz, Şuşa çox balaca bir yerdir. Əhali öz doğma evlərinə qayıtmağını gözləyir. Ona görə də biz bütün planı nəzərdə tutaraq öz təkliflərimizi vermişik. Əlbəttə ki, lap böyük məktəb olmasa da, yay aylarında ustad dərsləri keçilməlidir. Bunun üçün orda bir mədəniyyət ocağı olmalıdır. Ya məktəb binası, ya mədəniyyət evi, ya bir teatr binası kimi bir ocaq olsa, orda ustad dərsləri keçilməlidir. Bizim muğam, simfonik, kamera musiqiləri sahəsində böyük professorlarımız var. Onların biliklərindən istifadə etməklə dərslər keçilməlidir. Mən "elit" deyəndə ən istedadlı uşaqların toplanacağı məktəbi nəzərdə tuturam. Hardasa 20-25 nəfəri götürüb orda dərs keçirik. Mən Şuşada yaranacaq məktəbi bu formada görürəm.

***- Ermənistan silahlı qüvvələri, terrorçuları Şuşada və digər şəhərlərdə hələ də hərbi təxribatlar törədir. Azərbaycan cəmiyyəti, insanı, ziyalısı, siyasətçisi, diplomatları mövcud vəziyyətlə bağlı nə dərəcədə adekvat addımlar ata bilir. Bəzən çoxlarımız yalnız "söz xiridarı" olmaqdan o tərəfə keçə bilmirik. Bu mənada hansı daxili neqativlərin aradan qaldırılmasını istərdiniz?***

- Bilirsiz, qələbədən sonra ayrı bir müharibə başladı. İndi bizimlə bizi sevməyən qüvvələr arasında müharibə gedir. Onlar istəmirlər ki, biz ora qayıdaq, istəmirlər ki, kilsələri, məscidləri bərpa edək. İstəmirlər bizim o camaat qayıtsın öz evlərinə. Bu ikili standartdır, ya nədir, bilmirəm. Amma hər halda Amerika da, Fransa da və başqa qonşularımız faktiki olaraq bizi istəmirlər. Bizə dost elini uzadan əsas dövlətlər Türkiyə və Pakistan oldu. Başqa heç kim. Biz bunu bilməliyik, daha da möhkəm olmalıyıq. Mədəniyyətimizlə, idmanımızla. Baxın, paraolimpiyaçılarımız Tokioda neçə qızıl medal aldı. Neçə dəfə Azərbaycanın bayrağı yüksəklərə qaldırıldı. Bax bu olmalıdır. Əsgərlər öz sözünü deyiblər. İndi bəstəkarlar, yazıçılar, rəssamlar, adi adamlar, mühəndislər, fəhlələr, həkimlər öz sözünü deməlidirlər. Çünki biz hamımız bir yumruq kimi bu torpağı yenidən dirçəltməliyik, öz evlərimizə qayıtmalıyıq.

Müharibə davam edir. Bu istiqamətdə təbliğatımızı gücləndirməliyik. Bu gün mənim ümidim daha çox cavanlarımızadır. Onlar ən müasir informasiya texnalogiyalarından istifadə edərək bu işləri apara bilərlər. Qoy bloggerlər internet üzərindən ermənilərlə vuruşsunlar. Azərbaycanlılar bir-biri ilə vuruşmasın. Qoy hansısa bir ulduzun şəxsi həyatını müzakirə edənlər, daha çox cəmiyyətin problemləri ilə bağlı narahat olsunlar. Amma bəzən baxıram ki, bir ulduzun şəxsi həyatının müzakirəsində 500-1000 nəfər iştirak edir. Kim maşın aldı, kimin ailəsi dağıdı... Siz nəyi müzakirə edirsiz? Ay canım, bizdə o boyda problemlər var. Yaxud, cəmiyyətimiz Rusiyanın hansısa orqanlarına məktublar göndərib ölkəmizə qarşı əks təbliğatlara, əks fəaliyyətlərə qarşı etirazımızı bildirməliyik. Onlara sualımız bu olmalıdır ki, bəs 2000-ə yaxın rus sülhməramlısı ərazidə yerləşib nə ilə məşğul olur? Niyə orda erməni silahlı dəstələri olmalıdır? Düşünürəm ki, bu istiqamətdə cəmiyyətin təzyiqi daha aktiv olmalıdır, bütün enerjimizi bu istiqamətə yönəltməliyik. Yoxsa, xırda, məişət problemlərinə, bir-birimizə qarşı yox. Bu bizə yaraşmaz. Bizi o qədər böyük məqsədlər gözləyir ki, belə hallar qəbulolunmazdır.

Mən Şuşa küçələrində gəzərkən Bülbülün evini, dağılan evimizi görüb çox qəhərlənirdim. 2007-ci ildə Poladla o dağılan evimizə getmişdim, orda kövrəldim. O evdə Fikrət Əmirov, Süleyman Ələsgərov, atam Əfrasiyab Bədəlbəyli, hamımız süfrə arxasında otururduq. Amma sağ olsun Polad, kişi kimi öz ata baba evini bərpa elədi. Cənab prezident açılışını elədi, sonra biz gəldik. Və birinci dəfə Polad muzeydə süfrə açdı və onun ətrafında sevincimizi qeyd elədik. Yəni biz yavaş-yavaş hər bir rayonumuza qayıdacağıq. Biz Füzulidə aeraportu gördük. Birinci təyyarə ora getdi. Bu böyük hadisədir. Bu 9 ay ərzində biz bir neçə dəfə o zəfər yolu ilə getmişik. Dəhşət idi, səfərimiz 3 saat çəkmişdi. İndi isə 1 saata çatdıq. Bu 9 ay ərzində belə işlər aparmaq qeyri-mümkündür. Və mən çox şadam ki, biz həmişəlik qayıdırıq. Allah bilir sonrakı 50 ildə nələr olacaq. Bəlkə Qərbi Zəngəzur da İrəvan torpaqları da Azərbaycanın sərhədləri daxilində olacaq. Faktiki olaraq o yerlər bizim torpaqlarımızdır. Mən buna inanıram və açıq desək, biz bu müharibədə hər gün iştirak eləməliyik. Tələbə də, şagird də, qoca da, cavan da... Bu müharibə qurtarmadı. Biz qalibik, amma müharibəmiz davam edir. Ona görə də gəlin bir yumruq kimi olaq və gələn müharibələrdə yenə qalib olacağıq.

***- Fərhad müəllim, Prezidentin mədəniyyət adamları ilə görüşündə siz çıxışınızın sonunda qəhər içində "Şuşasız biz yaşaya bilmərik"- dediniz. Bir anlıq özlüyümdə düşünürdüm, Şuşanın azadlığından sonra Fərhad Bədəlbəyli ifasında Şuşada hansı əsər eşidiləcək, Şuşanı hansı musiqi əsəri ilə ovunduracaq. "Xarıbülbül" festivalında ifanızda səslənən "DƏNİZ"əsərindən sonra, Şuşa Günlərinə hansı əsərlə qatılacaqsız?***

- Mən qələbədən sonra "Zəfər" marşını yazdım. O Zəfər marşını Qəbələdə Musiqi Festivalında hərbi orkestrlə ifa etdik. Deyəsən pis alınmadı. Bu mənim Şuşaya birinci hədiyyəm idi. Gələcəkdə Şuşada yaşamaq, onun havasını udub, suyunu içmək lazımdır ki, ilhama gəlib yeni-yeni əsərlər yazaq. Şuşada 3 aylıq ustad dərslərini təşkil eləməkdə də məqsədim odur ki, bütün istedadlı adamlar ora gəlsin -şairlər, rəssamlar, bəstəkarlar. Şuşadan ilham ala-ala yeni əsərlər yaradılsın...

✍ *Tahirə Qafarlı*

# Bakıya bir illik gəlmişəm

## Bizim səfir



**Mustafa Kamal Bəyazbayram,**
Şimali Kipr Türk Respublikasının ölkəmizdəki təmsilçisi

*Çoxlarının qısaca KKTC kimi tanıdığı Şimali Kipr Türk Respublikasının ölkəmizdəki təmsilçiliyinə yeni rəhbər təyin olunub - Mustafa Kamal Bəyazbayram. Azərbaycanı yetərincə tanıyır. Axı 2002-2007-ci illərdə ölkəmizdə diplomatik fəaliyyətdə olub. Çox savadlı və məlumatlı adamdır. Mustafa bəylə uzun-uzadı söhbət elədik, ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun hər şeydən söz açdıq. İlk başda özünü oxuculara tanıdan müsahibimiz hətta fürsət düşən kimi Qarabağa, Şuşaya səfər edəcəyini dilə gətirdi.*

- Bu il avqustun 1-dən etibarən Şimali Kipr Türk Cümhuriyyətinin Bakıdakı Nümayəndəliyinə rəhbər təyin olunmuşam. Əslində isə 1999-cu ildə KKTC Xarici İşlər nazirliyində 3-cü katib olaraq fəaliyyətə başlamışam və o vaxtdan günümüzədək fərqli vəzifələrdə çalışmışam. Fərqli illərdə Türkiyədə, Pakistanda, İngiltərədə və sair konsul, Baş konsul, 3-cü katib və məsələn, vaxtilə Azərbaycanda 2-ci katib olaraq diplomatiya sahəsində ölkəmə xidmət eləmişəm. Ailəliyəm, iki övladım var...

***- Necə oldu ki, Bakıya təmsilçi təyin olundunuz, Azərbaycana göndəriləcəyinizi öncədən bilirdiniz?***

- KKTC Xarici İşlər Nazirliyi hər altı aydan bir xaricdə fəaliyyət göstərən təmsilçiliklərdə çalışan, fəaliyyət müddəti dolmuş və ya vaxtının başa çatmasına rəğmən vaxtını bir qədər də uzadılmasını istəyənlərin tələb siyahısı tutulur. Nazirliyin mərkəzi ofisində çalışan və xaricdə fəaliyyət göstərmək arzusu olan diplomatlarımız işləmək istədikləri üç ölkənin, təbii ki, ən çox arzuladığı ölkənin adını birinci yazmaqla, qeyd etməlidir.

2017-ci ildə Antalyaya qurucu Baş konsul olaraq təyinat almışdım və orada 4 il Baş konsul vəzifəsində fəaliyyət göstərmişəm. Yeri gəlmişkən, KKTC XİN-in qaydalarına görə isə bir diplomat ölkə xaricində maksimum 4+1 il qala bilər. Mən də 4 illik vaxtım başa çatdıqda övladlarımın təhsil məsələsi və digər problemləri nəzərə alaraq daha bir il çalışmağa qərar verdim. Əlbəttə, siyahıda birinci ölkə olaraq Azərbaycanın adını qeyd elədim. Bu da təbidir. Çünki mən burada daha əvvəllər çalışmışam, üstəlik xanımım azərbaycanlıdır, bura mənim də ikinci vətənim sayılır. Nazirlik də seçimimi uyğun gördü və əlavə bir illik fəaliyyət tələbimə əsasən məhz Azərbaycana göndərildim.

***- Yeri gəlmişkən, burada nə qədər qalacaqsınız?***

- Dediyim kimi, diplomatiya haqqında qanunlara əsasən xaricdə ardıcıl olaraq 5 ildən artıq qalmaq mümkünsüzdür. Yəni bir illiyinə buradayam, sonra ölkəmə qayıdıb nazirlikdə çalışacağam. İnşallah, gələcəkdə mümkün olarsa başqa bir iş sahəsində Bakıya yenə gələrəm.

***- Daha əvvəllər də burada çalışmısınız və bu səbəbdən də Azərbaycanı yaxşı tanıdığınıza əminəm. Haralarda olmusunuz Azərbaycanda, bəxtinizdən işğal altından torpaqlarımız da azad edilib, səfər etdinizmi Şuşaya, Ağdama və digər bölgələrə, yaxud da yaxın vaxtlarda belə bir niyyətiniz varmı?***

- Əlbəttə, ilk fürsətdə azad edilmiş torpaqlara səfər edəcəm. Mən ilk dəfə Bakıda çalışdığım dönəmdə tədbirlərdə "...Türkün bayrağını Qarabağda asacağıq" kimi mahnıları dinləyərdik. Mən 2003-2007-ci illərdə Bakıda olarkən Qarabağı dillərdən eşidirdimsə, indiki ikinci fəaliyyət dövründə bu torpaqlar artıq azaddır və bu məni çox sevindirir, necə ki sizləri də çox qürurlandırır. İnşallah, ən qısa vaxtda azad edilmiş torpaqlarda iqtisadi-sosial quruculuq işləri başa çatar, o torpaqlar da Bakı kimi gözəlləşər, inkişaf edər.

Əvvəlki fəaliyyətim dövründə Azərbaycanın çox yerlərini gəzib görmüşəm. Quba, Qusar, Şəki, Nabran, Bərdə, Şamaxı və sair kimi bölgələrdə olmuşam. Qismət olarsa, Qarabağı da ziyarət edərəm. Əlbəttə, bildiyim qədər, hazırda azad edilmiş ərazilərə giriş məhdudiyyəti var, ora ancaq dövlət tərəfindən təşkil edilmiş xüsusi səfərlər çərçivəsində getmək mümkündür. Nə vaxt dəvət etsələr, canla-başla getməyə hazıram.

***- Hər bir təmsilçinin getdiyi ölkədə həyata keçirmək istədiyi planlar olur. Bir illik gəlsəniz də, hansı planlarınız olacaq, burada çalışdığınız sürədə nələrin reallaşdırılmasını istərdiniz?***

- Əlbəttə ki, bu qısa vaxtda ölkələrimiz və qardaş xalqlarımız arasında bütün sahələrdə - mədəni, təhsil, iqtisadi-ticarət və sair əlaqələrin genişləndirilməsinə, iki ölkənin parlament təmsilçiləri arasında münasibətlərin rəsmi səviyyədə qurulmasının təmin edilməsinə, xüsusilə də, əvvəllər mövcud olmuş Azərbaycan - KKTC Parlamentlərarası dostluq qrupunun fəaliyyətinin yenidən aktivləşməsinə nail olmaq istərdim. Mən Bakıya gəlmədən öncə Azərbaycan parlamentinin nmayəndə heyəti KKTC-də səfərdə olmuşdu. İnşallah fəaliyyətim dövründə Kıprıs millət vəkillərindən ibarət heyət də Azərbaycana gələr.

> “
> *Mən ilk dəfə Bakıda çalışdığım dönəmdə tədbirlərdə ...Türkün bayrağını Qarabağda asacağıq kimi mahnıları dinləyərdik*

Bilirsiniz ki, KKTC siyasi mənada tanınmasa da, İslam Əməkdaşlıq Təşkilatında və İqtisadi Əməkdaşlıq Təşkilatında və sair müşahidəçi statusunda təmsil olunur. Amma çox arzu edərdik ki, ölkəmiz Türk Şurasında da müşahidəçi sifətilə təmsil edilsin. Əlbəttə, bu Azərbaycan və ya Türkiyənin təkbaşına verəcəyi qərar deyil, Şuraya üzv digər türk dövlətlərinin də razılığı lazımdır. Bizim mövqeyimiz, nə istədiyimizi bu gün Qazaxıstan da bilir, Qırğızıstan da, Azərbaycan da. Biz hər zaman yunanlara dostluq əli uzatdıq, sülh yaratmaq istədik...

***- Yunanlarla sülh danışıqlarında vəziyyət necədir?***

- Yunanlar öz mövqelərində qalırlar. Sonuncu Cenevrə görüşündə də BMT-nin baş katibi dedi ki, ortaq razılığa gəlinmədi və biz də geri qayıtdıq. Bildirildi ki, danışıqlar yenidən olacaq, amma o gün-bu gün, heç nə yoxdur. Bizim mövqeyimiz aydındır: adada iki bərabərhüquqlu, azad dövlət tanınmalı və yan-yana yaşamalıdır.

***- Amma əvvəl KKTC olaraq müstəqil dövlət olma tələbi qoymurdu türklər...***

- Əvvəllər biz deyirdik ki, iki bərabərhüquqlu toplum olaraq federasiyada birləşək. Yunan Kipri buna da razı olmadı. Hətta 2004-ci ildə Annan Planı icra edildi, kıprıslı türklərin 65 faiz "hə" dedi, yunanların isə 76 faizi qarşı çıxdı. Bu da onu göstərdi ki, yunanlar heç nəyi türklərlə bölüşmək istəmirlər. Belə bir deyim var: zorla evlilik olmaz. Kosovo da bir zamanlar müstəqil deyildi, amma gördülər ki, serblərlə birgə yaşaya bilmirlər, müstəqilliklərini elan etdilər və hazırda dünyanın böyük qismi tərəfindən tanınıb.

***- Bir diplomat olaraq söyləyin: bu gün KKTC ilə Azərbaycan arasında həm siyasi, həm də iqtisadi sahələrdə hansı çatışmazlıqlar var və onları aradan qaldırmaq üçün nələr edə bilərik?***

- İlk növbədə iqtisadi-ticarət sahəsənin adamları qarşılıqlı olaraq bir-birilərini tanımalıdırlar. Bu gün koronavirus təhlükəsi var, amma internet üzərindən də görüşüb, müzakirə apara, razılaşma imzalaya bilərlər. KKTC-də istehsal olunmuş məhsulların Azərbaycana və ya Azərbaycan malının Kıprısa ixracı, turizm sektoruna qoyula biləcək sərmayələr danışılmalıdır. Kənd təsərrüfatında mühüm nailiyyətlər əldə edən, eləcə də tikinti sahəsində yaxşı təcrübələri olan Azərbaycanın bu uğurları bizimlə paylaşmasını istərdik. Təhsil sahəsinə gəldikdə, KKTC-də mövcud olan 21 universitetin əksəriyyəti Avropa İttifaqı Universitetlər Birliyinin və Dünya Universitetlər Birliyinin üzvüdür. Yəni diplomlarımız dünyanın hər yerində tanınır. KKTC universitetlərində təhsil alan hər bir tələbə istədiyi zaman təhsilini, məsələn, London universitetlərində davam etdirə bilər. Maqosadakı Doğu Akdeniz Universiteti dünyanın ən yaxşı 600 universiteti arasındadır. Təsəvvür edin: dünyanın 65 fərqli ölkəsindən gəlmiş müəllimlərin dərs dediyi KKTC universitetlərində 142 ölkədən də təxminən 105 min tələbə təhsil alır. Bu da sayına görə ölkə əhalisinin dörddə birinə bərabərdir. Düzdür, pandemiya müddətində rəqəmlər bir az dəyişə bilər, amma yenə də dünyada KKTC universitetlərinə maraq böyükdür. Eynilə Azərbaycanda da yaxşı universitetlər mövcuddur, xüsusilə də incəsənət sahəsində. Burada konservatoriya, filarmoniya, musiqi akademiyası və sair var. Bu sahədə əlaqələr gücləndirilməlidir. Müəllimlərin mübadiləsi həyata keçirilməlidir universitetlər tərəfindən. Tələbələr də, məsələn, 3 və ya 4-cü kursda KKTC universitetlərində təhsillərini davam etdirməklə, xüsusilə xarici dil öyrənmə şansı qazanmalıdırlar.

***- KKTC-də dünyanın ən keyfiyyətli kartofu, portağalı yetişir, dünyada məşhur olan Hellim pendiri istehsal olunur. Necə edək ki, Azərbaycan bu məhsulları elə sizdən alsın, pulumuz yadların cibinə girməsin, həm də keyfiyyətli qida alaq?***

- Ticarətdə qardaşlıq yox, iqtisadi şərtlər özünü göstərir. Burada bəzi amillər var: 1. Məsafə. Bu qiymətin yüksəlməsinə səbəb olur. 2. Nəqliyyat-daşıma. Yəni məhsulun vaxtında bazara çıxmaması onun xarab olması ilə nəticələnə bilər. 3. Ölkələr arasında mövcud olan tariflər, gömrük rüsumu. Təbii ki, iş adamları bir işə başlayanda ilk olaraq nə qədər qazanacaqlarını hesablayırlar. KKTC istehsal etdiyi Hellim pendirini dünyaya satır, Körfəz ölkələrinin bazarlarını təmin edirik. Lazımdır ki, iki ölkənin iş adamları arasında sözügedən pendirin Azərbaycan bazarına da çıxarılması üçün razılıq əldə olunsun. Əks təqdirdə hansısa kıprıslı iş adamı gəlib Bakıda dükan açıb, pendir satmayacaq - bu mümkün olmayan işdir. Bunlar mütləq iş adamları arasında qarşılıqlı mənfəətə söykənən əməkdaşlıq yoluyla edilə bilər. Dövlət bunu məcburi edə bilməz, əgər mənfəətlərə dayanan ticarət əlaqələri yaradılmasa, bir gün bu əlaqələr mütləq pozulmağa məhkumdur. Amma biz dövlət olaraq iki ölkə arasında ticarətin və əməkdaşlığın inkişafı üçün iş adamlarımızın önünü açacaq mümkün olan addımları atmağa hazırıq.

***- Son 15 ildir KKTC reallıqları mətbuatımızda çox az yazılır. Səbəb odur ki, əsl yaradıcı müxbirlər KKTC-yə dəvət edilmirlər. Bu səbəbdən də mətbuatımızda canlı reportajlar, müsahibələr görünmür uzun illərdir...***

- İndi pandemiyadır, inşallah koronavirus, Qarabağ problemi pis xatirələrə çevriləcək, bundan sonra hər şey öz axarına düşəcək.

***- 44 günlük Vətən müharibəsi zamanı KKTC xalqı bizimlə həmrəylik nümayiş etdirdi və buna görə Kıprıs Türk xalqına minnətdarıq. Müharibədən sonrakı az qala 1 illik müddətdə Azərbaycanın Kıprısı tanıyacağına dair şayiələr yayıldı. Hətta Milli Məclisin yüksək heyəti Ərdoğanın səfərindən az öncə Lefkoşada səfərdə oldu və bu, bizdə tanınma məsələsini bir az da əminləşdirdi. Amma olmadı. Necə bilirsiniz, Azərbaycan KKTC-ni tanıya bilərmi?***

- Müjdə xəbərini yaymaqla sadə xalq kütləsində necə deyərlər, insanların xoşbəxt edən gözlənti yaratdılar. Tanıma var de-fakto, tanıma da var de-yure. De-yure tanıma odur ki, dövlət rəsmi səviyyədə qərar qəbul edir, de-fakto tanıma isə odur ki, iqtisadi-ticarət əlaqələri yüksək səviyyədə inkişaf edir, gediş-gəliş başlayır və sair. Tarixən belə olub: SSRİ yaranında öncə İngiltərə onu tanımırdı. Eynilə də Çin Xalq Respublikası elan edildikdə ABŞ onu tanımaq istəmirdi. Necə ki, bu gün Əfqanıstanda "Taliban"ı tanımırlar, amma o tərəfdə görüşüb müzakirə edirlər. Bunlar həmişə olub və sonda mütləq bir nəticə verib. Bu gün bizim üçün vacib olan bir-birimizə qucaq açıb yuxarıda qeyd etdiyim bütün əlaqələri qurmaqdır. Bu gün bir azərbaycanlı iş adamı gedib KKTC-də otel tikirsə, yaxud hansısa bir kıprıslı türk iş adamı gəlib burada nəsə bir biznes qurursa, bax bunlar həmin "Müjdə" sözünün altında yatan icraat olacaq. Sabah nə olacağını indidən kimsə deyə bilməz. Yetər ki, əlaqələrimizi quraq, əməkdaşlığımızı edək.

***- Ümumiyyətlə, Azərbaycan tanıya bilər KKTCnın müstəqilliyini? Tanıyarsa adekvat nə kimi cavab verə bilər qarşı tərəf?***

- Bu barədə dəqiq nəsə demək çətindir. Çünki bu gün dünya ölkələri siyasi, iqtisadi - bütün sahələrdə o qədər bir-birinə inteqrasiya edib ki, belə demək mümkündürsə, bir-birinə möhtac vəziyyətdədir. Baxın, elə kiçik dövlət ola bilər ki, sizin marağınız olan yerdə sözü keçər, yaxud da elə böyük və güclü dövlət var ki, onun sizə heç bir təsiri olmaz. Diplomatiyada belə bir qayda var: əmin addımlarla yavaşca irəliləmək. Çünki kimsə bilməz ki, qarşıda başına nə gələcək. Yunanıstanla Kipr Respublikasına gəldikdə, bu iki dövlət tarixlərində ən pis vəziyyətdədirlər, həm siyasi, həm də iqtisadi sahada çox zəifləyiblər. Yunanıstanda iqtisadi böhran yaşanır, Cənubi Kiprdə isə işləri siyasi oyunlar aşkara çıxandan sonra dünya qarşısında etibarlarını itiriblər. Buna baxmayaraq, bu ölkələrdən Türkiyənin və Azərbaycanın maraqlarına qarşı istifadə edə bilərlər. Necə ki, İsrail Türkiyə ilə arası soyuyan zaman məhz Cənubi Kipr və Yunanıstan kartından istifadə eləməyə başladı.

***- 44 günlük Vətən müharibəsi zamanı KKTC xalqı, xüsusilə də prezident Ersin Tatar Azərbaycana çox ciddi mənəvi dəstək verdi. Bu gün Azərbaycanda hansı evə getsəniz bu dəstək barədə ürək dolu sözlər eşidərsiniz...***

- Prezident Tatar olduqca millətçi, xalqsevər şəxsiyyətdir. O, Azərbaycanın problemlərini özününkü bilən, türk dünyasında baş verən hər şeyə maraqla yanaşan, Türkiyəyə sürəkli səfərlər edən, xalqın - kütlənin içində gəzən liderdir. Amma münasibətlər qarşılıqlı olmalıdır. Əlbəttə, deyə bilərik ki, şəraitə uyğun olaraq Türkiyənin imkanları fərqlidir, Azərbaycanınkı başqa cür fərqlidir, KKTC-ninki də həmçinin. Əsas odur ki, istək olsun, qarşılıqlı münasibətlər ən üst səviyyədə və "bir millət, üç dövlət" əhval-ruhiyyəsi içində həyata keçirilsin.

✍ **Vüsal**

---

**Son aylar strateji ərzaq məhsullarından birincisi hesab olunan buğdanın qiymətində artım sürətlənib. Planetimizi təhdid edən hava fəlakətləri fonunda bütün dünyada taxıl yığımı ilə bağlı proqnozlar kəskin şəkildə aşağı salınıb. Beynəlxalq Taxıl Şurasının məlumatına görə, cari ilin avqustun ortalarınadək dünya üzrə 737 milyon ton buğda istehsal edilib. Halbuki ötən ilin eyni dövründə istehsal 760 milyon tona bərabər idi. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən, 2020-ci ilin ikinci yarısından 2021-ci ilin birinci yarısınadək olan dövr ərzində dünyada ərzaq buğdasının qiymət artımı müşahidə olunub və bunun əsas səbəblərindən biri qlobal səviyyədə taxıl təminatının azalmasıdır.**

# Çörəyin qiyməti bahalaşacaq?

## Aktual

Belə ki, qiymətlər yanvar ayından indiyədək müxtəlif günlərdə bir ton buğda üzrə 240-283 ABŞ dollarından avqustun sonunda 266-286 ABŞ dollarına qədər yüksəlib. Proqnozlara görə, bu mövsümdə dünya üzrə buğda istehsalı daha da azaldığından qlobal səviyyədə buğda təminatında ciddi çətinliklərin meydana çıxması gözlənilir. Qeyd edək ki, Azərbaycanın ərzaq buğdası aldığı Rusiya və Qazaxıstanda da istehsal proqnozu kəskin aşağı düşüb.

Artıq MDB regionunda ən böyük tədarükçü ölkələrdən biri olan Rusiyanın müvafiq dövlət qurumları da cari ildə taxıl məhsullarının istehsalının əvvəlki illə müqayisədə azalacağı səbəbilə yeni ixrac siyasətində də bir sıra dəyişikliklər etməyi planlaşdırır.

Rusiyanın Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən, 2021-ci il mövsümündə təxminən 80-81 milyon ton buğda istehsalı proqnozlaşdırılır ki, bu da 2020-ci il mövsümü ilə müqayisədə 5 milyon tona yaxın azalma deməkdir. Bu səbəbdən də Rusiya yeni mövsüm ərzində buğdanın illik ixracını 40 milyon tondan 34 milyon tona endirəcəyini açıqlayıb. Bəs, görəsən, baş verən bu proseslər Azərbaycana necə təsir edəcək? Çörəyin qiymətində bahalaşma gözlənilirmi?

■ **Məsələni hafta.az-a şərh edən kənd təsərrüfatı sahəsi üzrə mütəxəssis Vahid Məhərrəmov bildirib ki, bu gün həqiqətən də dünyada ərzaq buğdasının istehsalında azalma müşahidə olunur:**

"Məsələn, Rusiyada əkin sahəsi təxminən 1,3 milyon hektar azalıb. Proqnozlara görə, buğda istehsalı da təxminən 4,6 milyon ton azalmalıdır. Bunu həm rusiyalı, həm də amerikalı ekspertlər proqnozlaşdırırlar. Və bununla paralel Rusiya hər ay ixrac rüsumunu artırır. Bu o deməkdir ki, bizə buğda daha baha başa gəlir. Təsəvvür edin ki, ötən ilə nisbətən biz buğdanı 10 faiz baha almışıq. Bu hələ son deyil və bundan sonra da buğda idxal olunacaq, özü də daha baha qiymətə idxal ediləcək. Biz bununla bağlı xeyli müddət əvvəl hökumətə təkliflərimizi vermişdik. Hesab edirik ki, ilk növbədə bu sahədə peşəkarlar çalışmalıdırlar.

Ölkədə demək olar ki, əkin sahələrinin 38 faizi buğdanın altındadır. Yəni, əgər bu 38 faiz ərazidən əldə etdiyimiz məhsulla özümüzün ərzaq buğdasına olan təminatımızı ödəyə bilmiriksə, ciddi şəkildə düşünməliyik. Nə etmək lazımdır? Düzdür, bizdə peşəkarlar var, amma çox az saydadır. Biz peşəkarların sayını artırmalı və bu işə cəlb etməliyik.

Digər tərəfdən, bu sahənin özündə ciddi problemlər var. Məsələn, hər il şikayətlər olur ki, fermerlərin suvarma suyuna olan ehtiyacları tam ödənilmir. Bu çox ciddi məqamdır. Bundan daha ciddi məsələ isə seleksiya işlərinin aparılmasıdır. Ölkədə stress amillərə dözümlü, yüksək məhsuldarlı, keyfiyyətli buğda sortları yetişdirilməlidir.

Bu işlə məşğul olan hər hansı bir qurum yoxdur. Bu gün toxum istehsalını oliqarxlar həyata keçirir. Onlar da istehsal etdikləri buğdanı toxum materialı kimi kəndlilərə sırıyırlar. Əksər halda da yaxşı nəticəsi olmur, heç bitiş belə vermir. Yəni, bu sahədə problemlər çoxdur. Ona görə də un və un məmulatlarında bahalaşma qaçılmazdır. Onsuz da çörəkdə biz bahalaşma müşahidə edirik. Düzdür, zavod çörəyində nisbətən qiymət stabil saxlanılmağa çalışılır. Amma hamıya məlumdur ki, həmin çörək bir o qədər keyfiyyətli deyil və daha aşağı sort buğdadan alınan undan istehsal olunur. Digər çörəklər isə çox bahadır. Məsələn, mən 2 ay bundan əvvəl 50 qəpiyə aldığım alman çörəyini hazırda 65 qəpiyə alıram. Yəni, qiymətlərdə ciddi artım var və artım bundan sonra da davam edəcək". Ekspert həmçinin vurğulayıb ki, bu il Azərbaycanda 1 milyon 885 min ton buğda istehsal olunub. Onun sözlərinə görə, bu göstərici 2009-cu illə müqayisədə 250 min ton azdır: "Bu göstərici 2019-cu illə müqayisədə isə 300 min ton az nəticədir. Yəni, istehsal ilbəil azalır".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Akif Nəsirli isə deyib ki, statistik məlumatlara əsasən, bu il ölkəmizdə 3 milyon tona yaxın taxıl istehsal olunub:**

"Bizdə həmişə istehsal olunan taxılın təxminən 60-70 faizi ərzaq buğdası olur. Əgər biz o hesabla götürsək, 3 milyon tonun təxminən 1,6-1,7 milyon tonu ərzaq buğdası olmalıdır. Deməli, bizə kənardan o qədər ciddi buğda ehtiyatı əldə etməyə ehtiyac qalmır.

Çünki Azərbaycan əhalisinin buğdaya olan tələbatı təqribən 1,8-2 milyon tondur. Belə olan halda Azərbaycana təxminən 300-400 min ton ərzaq buğdası lazım olacaq. Onun da idxalı o qədər ciddi problem deyil. Amma indiyə kimi Azərbaycan hər il 1,2-1,3 milyon ton xaricdən buğda idxal edib. Burada statistikanın etibarsızlığı ortaya çıxa bilər. Ola bilsin ki, statistikanın rəqəmləri etibarlı olmasın. Bizdə heç 3 milyon ton taxıl istehsal edilməyib. Bu sahədə saxtakarlıq var, taxılın subsidiyasının əldə etmək üçün 100 hektar əvəzinə, 500 hektar sənədləşdirilir. Bunu hökumətə yaxın böyük şirkətlər edirlər. Yəni, qeyri-dəqiq statistik rəqəmlər dolaşdığına görə, əlimizdə olan rəqəmlərə istinadən vəziyyəti tam ətraflı dəyərləndirə bilmirik. Amma ümumi götürdükdə, əvvəlki illərə nisbətən Azərbaycanın yerli buğda istehsalı xeyli artıb. Bu artım həm də işğaldan azad edilmiş ərazilər hesabına baş verib. Ona görə də Azərbaycan bu il buğda istehsalının əsaslı şəkildə azaldacaq".



■ **Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Vüqar Hüseynov isə bildirib ki, buğda ilə təmin edə bilir:**

"Bunlar Rusiya, Qazaxıstan, Ukrayna və Kanadadır. Azərbaycan isə 60 faiz təmin edə bilir. Çünki ölkədə kənd təsərrüfatı üçün torpaq ehtiyatları məhduddur və cəmi 1 milyon hektar ərazidə taxıl əkilir.

Bundan çox əkə bilmirik. Əsas məqsədimiz məhsuldarlığı artırmaqdır. Əgər əvvəllər bir milyon hektardan 3 milyon ton taxıl götürülürdüsə, indi 3,14 milyon tona çatdırmışıq. Biz müasir və tez yetişən, iqlimə davamlı növlərlə artıma nail olmaq istəyirik. Subsidiyaları ona görə veririk ki, torpağa gübrə versinlər. Son illər fermerlərin üçdə ikisi buğda əkir, amma həmin buğda əsasən ərzaqlıq deyil".

✍ **Sevinc**

# Aqroparklar regionların simasını necə dəyişir?

## Layihə

***Bu gün Azərbaycanın inkişafı yalnız paytaxtın deyil, həm də regionların hesabına baş verir. Demək olar ki, bölgələrimizin siması 15-20 il əvvəllə müqayisədə tamamilə dəyişib. Regionların sosial-iqtisadi inkişafı istiqamətində aparılan işlər bölgələrin inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə şərait yaradıb. Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, növbəti onillikdə reallaşdırılmalı olan milli prioritetlər ölkənin sosial-iqtisadi inkişafı üçün yeni hədəflər müəyyən edib, qeyri-neft iqtisadiyyatının inkişafın mərkəzinə çevrilməsi nəzərdə tutulub.***




**Son illər paytaxtla bölgələr arasında fərqin minimuma enməsində aqroparkların da xüsusi rolu olub**

Qeyri-neft sektorunun inkişaf etdirilməsi sosial-iqtisadi inkişafın effektivliyi, dövlət büdcəsinin gəlirlərinin artırılması və bu gəlirlərin müxtəlif mənbələrdən formalaşdırılması baxımdan əhəmiyyətli hesab olunur. Artıq həyata keçirilən iqtisadi siyasət və davamlı islahatların nəticəsi olaraq milli iqtisadiyyatın şaxələnməsi, qeyri-neft sektorunun inkişafı sürətlənib. Ölkə regionlarının, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramının uğurlu icrası öz növbəsində vergi daxilolmalarının artımına öz müsbət təsirini göstərib. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq vergi orqanları tərəfindən iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına stimul verən tədbirlər görülür. Belə ki, gəlirlərin şəffaflaşdırılması və uçotun dürüstləşdirilməsi istiqamətində həyata keçirilmiş sistemli tədbirlər, eləcə də sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması nəticəsində vergi daxilolmaları artıb. 2018-ci illə müqayisədə 2020-ci ildə regionlardan vergi daxilolmaları 23,1 faiz artıb. Eyni zamanda, mərkəzləşdirilmiş büdcədən dotasiya almadan öz gəlirlərini yerli mənbələr hesabına təmin edən rayonların sayı 41-ə çatıb. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının qəbulundan əvvəlki 2003-cü illə müqayisədə 2020-ci ildə regionlar üzrə vergi daxilolmaları 23,2 dəfəyə yaxın artıb.

Qeyd edək ki, bu gün bölgələrin inkişafına təkan verən əsas amillərdən biri də regionlarda sənaye məhəllərinin, aqroparkların yaradılmasıdır. Dövlət başçısı da daim çıxışlarında qeyri-neft sektorunun inkişaf perspektivləri barədə fikirlər səsləndirib və bu sahənin önəmini vurğulayıb. Ümumiyyətlə, dünya təcrübəsi göstərir ki, sənaye parklarının və aqroparkların yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Aqroparkların yaradılması həm də kəndlərdə yaşayan əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Sənaye məhəllələrində və aqroparklarda fəaliyyət göstərən sahibkarların fəaliyyətinin stimullaşdırılması üçün genişmiqyaslı vergi güzəştləri mövcuddur. Sahibkarlığın inkişaf etdirilməsi regionların vergi potensialının artmasına səbəb olduğu kimi, vergi güzəştləri də sahibkarlığın inkişafını stimullaşdırır və iqtisadi risklərin minimuma endirilməsini təmin edir.

> *"Xüsusilə yeni müəssisələr sənaye və bütövlükdə real sektorda kifayət qədər prioritet istiqamətlər üzrə yaradılıb*



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Məlumat üçün bildirək ki, bu gün ölkəmizdə ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsi və aqrar-sənaye kompleksinin modernləşdirilməsi məqsədilə aqroparkların yaradılması istiqamətində işlər davam etdirilir. Hazırda 32 rayon üzrə 240 min hektar ərazidə 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Bunlardan 35-i bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, digəri isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb. Artıq 43 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. İndiyədək 23 aqroparkın yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 173 mln. manat güzəştli kredit, 27 aqroparka isə 1 mlrd. manat dəyərində investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi almış 25 aqroparka texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə bir çox təsdiqedici sənədlər verilib və bu təsdiqedici sənədlər üzrə həmin aqroparklar 32,8 mln. manat dəyərində güzəştlər əldə ediblər. Bu günədək aqroparklara 1,2 mlrd. manat özəl investisiya qoyulub. Aqroparklarda məhsuldarlıq səviyyəsinin artırılması üçün müasir suvarma sistemlərindən geniş istifadə edilir. Hazırda fəaliyyət göstərən 43 aqroparkda ümumilikdə suvarılan 80 min hektar torpaq sahəsindən 40 min hektarı pivot, 7 min hektarı damlama, 2 min hektarı sprinkler suvarma sistemi vasitəsilə, 31 min hektarı isə ənənəvi üsullarla suvarılır.

Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumi olaraq 4750-dək işçi daimi, 4800-dən çox işçi isə mövsümü işlə təmin olunub. Gələcəkdə əlavə 4500-dən çox iş yerinin yaradılması nəzərdə tutulur.

Bu müəssisələrdə istehsal edilən məhsullara gəlincə, statistikaya əsasən, 2020-ci ildə aqroparklarda 124,3 min ton buğda, 64,6 min ton arpa, 121,6 min ton dən qarğıdalı, 90,4 min ton şəkər çuğunduru, 45,5 min ton silos üçün qarğıdalı, 18,5 min ton pambıq, 5,9 min ton soya, 32,3 min ton yonca, 27,4 min ton süd və 3,3 min ton ət istehsal olunub. 2017-2020-ci illər ərzində aqroparklarda ümumi sahəsi 7500 hektardan çox olan intensiv meyvə bağları salınıb ki, bu meyvə bağlarından 2020-ci ildə 12 min ton alma, 393,5 ton zeytun, 183 ton badam, 200,7 ton nar, 165,7 ton üzüm və s. yığılıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

### Ekspert rəyi...

**■ Məsələyə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, millət vəkili Vüqar Bayramov deyib ki, ölkəmizdə həyata keçirilən siyasət bir tərəfdən məşğulluğun təmin edilməsinə, digər tərəfdən istehsal və ixrac imkanlarının artırılmasına imkan yaradır:**

"Xüsusilə yeni müəssisələr sənaye və bütövlükdə real sektorda kifayət qədər prioritet istiqamətlər üzrə yaradılıb. Bu kontieksdən həyata keçirilən islahatlar qeyri-neft sektorunun inkişafı üçün yeni imkanlar yaradır. Eyni zamanda, aqroparkların yaradılması da kənd təsərrüfatı məhsullarının istehsalının təşkil edilməsi baxımından vacibdir. 2010-cu ildən etibarən Azərbaycanda kənd təsərrüfatının inkişafında yeni yanaşmanı müşahidə edirik. Bu amil məhsulların yalnız xammal formasında deyil, emal edilərək daxil bazarla bərabər, dünya bazarlarına çıxarılmasını ehtiva edir. Aqroparkların sayının artması emaledici məhsulların həcminin artması anlamına gəlir. Bu da kənd təsərrüfatı məhsullarına tələbi artırır və kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına zəmin yaradır. Digər tərəfdən aqroparklar dəyər zəncərinə uyğun olaraq emaledici məhsulun xarici bazara çıxarılmasını təmin edir. Nəticədə ölkəyə daha çox valyutanın daxil olmasına imkan yaradır. Kənd təsərrüfatında emaledici məhsullar xammala nisbətən 4 dəfədən çox gəlir əldə etməyə imkan verir. Bu da kənd təsərrüfatı məhsullarının keyfiyyət baxımından istehsalının yeni mərhələyə qədəm qoymasına səbəb olur. Digər tərəfdən, aqroparklar həm də iş yerləri deməkdir.

Bu kimi addımlar regionlarda iş yerlərinin sayının artırılması, məşğulluğun təmin olunması baxımından vacibdir. Yeni iş yerlərinin açılması ölkədə balanslı iqtisadi inkişafın formalaşmasına xüsusi töhfə verir.Yeni çağırışlarda iqtisadiyyatın dayanıqlı olmaqla yanaşı, həm də balanslı olması qeyd edilir. Regionlarla paytaxt arasında fərqin minimumlaşdırılması, xüsusən də regionlarda iqtisadi kadrların işlə təmin olunması, özəl sektorun məşğulluqda payının artırılması vacib və prioritet məsələlərdəndir. Yeni sənaye məhəllərinin və aqroparkların yaradılması da bu hədəflərə nail olunmasına xüsusi töhfə verməkdədir".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...




■ "Baza tibb təhsili üzrə ilk sertifikasiya imtahanlarının oktyabrda keçirilməsi planlaşdırılır". Bunu Səhiyyə Nazirliyi Sertifikasiya Mərkəzinin rəhbəri Murad Mirzəzadə "Tibb işçilərinin sertifikasiya imtahanlarındakı yeniliklər" mövzusunda çıxışında deyib. O bildirib ki, artıq imtahan sualları hazırdır: "Buradakı suallar klinik suallardır".

■ Həbsdə olan sabiq icra başçısı vəfat edib. Ağstafa rayon İcra Hakimiyyətinin sabiq başçısı Nizaməddin Quliyev dünən səhər dünyasını dəyişib. Sabiq icra başçısı Gəncə modul tipli xəstəxanasında COVID-19-dan vəfat edib. Qeyd edək ki, Nizaməddin Quliyev Goranboy, daha sonra isə Ağstafa rayon İcra Hakimiyyətinin başçısı olub.

■ Türkiyə milli komandasının baş məşqçisi Şenol Günəş vəzifəsindən ayrıla bilər. Bu barədə Türkiyə mətbuatı məlumat yayıb. Günəşin DÇ-2022-nin seçmə mərhələsində Niderlanda böyükhesablı məğlubiyyətə görə (1:6) vəzifəsindən göndəriləcəyi gözlənilir. 69 yaşlı mütəxəssis 2019-cu ilin martından Türkiyə millisini çalışdırır.



■ Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu üzrə sentyabr ayının pensiyaları ödənilib. Bu barədə hafta.az-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondundan məlumat verilib. Bildirilib ki, vətəndaşlar pensiyalarını bank kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

■ "Taliban" hərəkatı Əfqanıstanda ABŞ Hərbi Qüvvələrinə məxsus Baqram aviabazasının Çinə verilməsi barədə yayılan məlumatları təkzib edib. Bu məsələ ilə bağlı xarici KİV-də yayılan məlumatı "Taliban" hərəkatının Qətərdəki siyasi ofisinin rəsmi nümayəndəsi Məhəmməd Sohail Şahin təkzib edib. "Bu, yalandır", - deyə Şahin jurnalistlərə bildirib.



■ Meksikanın Herrero ştatının Akapulko şəhərində 7,1 maqnitudalı zəlzələ olub. Bu barədə ölkənin Milli Seysmoloji Xidməti xəbər verib. Onun məlumatına görə, yeraltı təkanların episentri Akapulkodan 14 kilometr cənub-şərqdə, ocağı isə 10 kilometr dərinlikdə yerləşib.

■ Ermənistanın keçmiş Baş prokuroru və İstintaq Komitəsinin sabiq sədri Aqvan Ovsepyan həbs olunub. Bu barədə məlumatı Ovsepyanın vəkili Sasun Rafaelyan açıqlayıb. Vəkil, həmçinin qeyd edib ki, onlar məsələ ilə bağlı mütləq Apellyasiya Məhkəməsinə müraciət edəcəklər.

■ Azərbaycanda dünən koronavirus infeksiyasına 2557 yeni yoluxma faktı qeydə alınıb, 3592 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Son sutkada nəfər 39 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Dediyim Qurana ziddirsə, götürün o kitabı başıma çırpın

## Din

**"Quranda Məhərrəmlik ayı yoxdur. Quranda adı çəkilən yeganə ay Ramazan ayıdır. Biz 44 günlük savaş əsnasında o iki ayı necə qəbul ediriksə, Məhərrəmlik və digər ayları da o cür qəbul eləməliyik". Bu barədə hafta.az-a ilahiyyatçı Elşad Miri dinimizdəki olmazlar ətrafında danışarkən bildirib.**

E.Miri bildirib ki, Miladi təqvim yanvar ayından, Hicri təqvim isə məhərrəmliklə başlayır. O, təəssüflə bildirib ki, tarixdə olmuş bir hadisəni din halına gətirərək, bir az da drammatikləşdirib təqdim edənlər insanların ağlaşma qurmasına səbəb olurlar.

"Amma mən həmişə deyirəm ki, əgər siz həqiqətən orada qətlə yetirilən həmin o şəxsi, peyğəmbərin nəvələrindən olan imam Hüseyni sevirsizsə onun kimi dürüst olun, haqsızlığa qarşı gəlməyi bacarın, onun kimi zülmə etiraz eləməyi bacarın. Onun kimi adam olun. Əgər sən adam deyilsənsə gündə 50 dəfə şaxsey-vaxsey deməyin sənin cənnət üçün vizan olmayacaq. Bu sadəcə sənin özünü başqalarına göstərmək üçün riyakarlığın olacaq. Məhəmməd peyğəmbər özü sağlığında ölən 3 qızı, 3 oğlu 3 həyat yoldaşına görə belə bir mərasimlər təşkil edibmi. Həmin günlərdə sevinməyin haram olduğunu bildiribmi. Həmin günlərdə kim toy edərsə, övladının şikəst olma ehtimalının olduğunu iddia edibmi. Heç bir zaman. Bunlar uydurmalardır". E.Miri Məhərrəmlik ayında bir çox insanların daha çox Məscidlərə, dini yerlərə gedərək xəstə uşaqlarını aparıb daşları öpdürmələrini, hansısa arzularına çatmaları üçün bir çox ritualların dini inancla bağlı olmadığını deyib.



**Elşad Miri,**
ilahiyyatçı alim

"Bu inanc deyil, bu mövhumatdır, bu xurafatdır. Bu Allahın bizdən istədiyi bir din deyil. Siz faktiki olaraq Ərəbistana getdiyiniz zaman da belə halların şahidi ola bilərsiz. Orda şahid oldum ki, qadınlar qızının paltarını gətirib Hirə mağarasına sürtürdülər ki, qayıdanda övladı dünyaya gəlsin.

Yaxud da gəlib Kəbənin özünə paltarını sürtüb onu müqəddəsləşdirmək istəyən insanlar var. Bu cür daşları, əşyaları götürüb müəyyən dəyərli hala gətirib təqdim eləmək fedişizmdir. Baxırsınız ki, hardasa bir ayaq izinə deyirlər ki, İbrahim peyğəmbərin ayaq izidir. Bu gün Bakının kəndlərində guya imam Əlinin Azərbaycandakı ayaq izi var. Gədəbəydə Hacı Qaya adlandırılan yerdə guya İmam Əlinin Zülfüqarla kəsdiyi daş var. Bunlar din deyil axı. Bunlar daş kəsmək üçün yox, insanlara haqqı çatdırmaq üçün gəliblər". E.Miri hesab edir ki, bu cür yanaşmalar bilgisizlikdən, cəhalətdən yaranır. Onun sözlərinə görə, həqiqətən insan bilmədiyinin düşmənidir. "Və yaxud da xristianlıqda olduğu kimi, İsa peyğəmbəri Allahın oğlu kimi təqdim eliyib bütləşdirirlər. Allah yerinə çıxardırlar. Bu gün də təəssüflər olsun ki, bəzi şəxsləri, hadisələri bütləşdiririk.

Bunun arxasında bəzən siyasi maraqlar olur. Siyasi maraqlara dini don geyindirib bunu din kimi bizə təqdm edirlər. Biz də həmin məsələlərlə bağlı danışanda həmin dinə, həmin yanlışa inanan adamların gözündə düşmən oluruq. Sənə Allahsız da deyirlər, dinsiz də deyirlər, ateist də deyirlər, deist də deyirlər, masson da deyirlər. Desinlər. Mən deyirəm ki, əgər mənim dediyim Qurana ziddirsə götürün o kitabı başıma çırpın. Ona görə deyirəm ki, açın özünüz baxın. Məsələn, mən deyirəm ki, filan ayənin filan surəsində belə deyilir. Yaxud yalnış tərcümə varsa, onun doğrusunu Qurana əsasalanaraq insanalara təqim edirəm. Ona görə bizim yeganə məqsədimiz islamın yeganə mənbəyi olan Qurana səsləməkdir. Yaxud da Quran, İslam adı ilə bizə uydurulan yanlışlardan təmizlənməkdir".

> *Gündə 50 dəfə şaxsey-vaxsey demək sənin cənnət üçün vizan olmayacaq*

**✍ Tahirə**



**Pənah Hüseyn,**
Xalq Partiyasının sədri

***Regiondakı vəziyyət gərgin olaraq qalır. İctimai-siyasi gündəm, geopolitik durum o qədər qarışıqdır ki, proseslərin düzgün məcraya yönəlməsi ağıllı və qətiyyətli tədbirlərin görülməsini tələb edir. Bunun üçün siyasi partiyalar nə edir, nə düşünür? Bu və digər məsələlərlə bağlı hafta.az-a müsahibə verən Xalq Partiyasının sədri Pənah Hüseyn maraqlı nüanslara diqqət çəkib.***

# Milli Məclisin sədrinə müraciət edəcəyik

## Palitra

***- Pənah bəy, bu günlərdə sosial şəbəkə hesabınızda bir sıra partiyalarla görüşüb müəyyən məsələləri müzakirə etdiyinizi və parlamentdə olmayan partiyaların Milli Məclisdə fəaliyyəti ilə bağlı müraciət hazırladığınızı bildirmisiz. Milli Məclisə nə təklif etmisiz?***

- Mütəmadi olaraq 4 partiya - Ağ Partiya, Milli İstiqlal Partiyası, Böyük Azərbaycan Partiyası və Xalq Partiyasının sədrləri qeyri-rəsmi şəraitdə toplanır və orada Qarabağ məsələsi, partiyalar arasında münasibətlər, partiyaların fəaliyyəti və son bir ayda Milli Məclisə müraciət hazırlayırıq. Müraciətdə parlamentə daxil olmayan siyasi partiyalarınn müşahidəçi kimi iştirakı məsələsini reqlament daxilində həll eləsinlər. Orda Partiya nümayəndələrinin komitələrdə müzakirə olunan qanunvericilik aktlarının müzakirəsində iştirakı nəzərdə tutulur. Əlbəttə ki, komitələrin iclasında profilə uyğun şəxslərin iştirakı nəzərdə tutulur. Qanunvericilik aktları Milli Məclisin saytında dərc olunsa da, həm də onlara əlavə edilən sənədlər də daxil olmaqla partiyalara əvvəlcədən göndərilsə, partiyalar da o barədə öz rəylərini hazırlayıb Milli Məclisə təqdim edə bilərlər. Ən nəhayət parlamentdə təmsil olunmayan partiya nümayəndələrinin parlamentin plenar iclaslarında qonaq, müşahidəçi qismində iştirakının təmin olunması faydalı olar. Dünyanın bir çox yerlərində nəinki parlamentdə olmayan partiya sədrləri, hətta adi vətəndaşlar da müəyyən bilet, dəvətnamə alıb parlamentin işinə qatılırlar. Məsələn biz 1991-ci ildə Türkiyədə olanda Millət Məclisində adi vətəndaşların parlamentin işində iştirakının şahidi olduq. Mən Londonda həm Lordlar Palatasında, həm də Nümayəndələr Palatasında da eyni halı müşahidə etmişəm. İndi dünyanın bir çox yerlərinin parlamentlərin iclasları canlı şəkildə yayımlanır, onlayın əlaqələr üçün imkanlar yaradılır. Təəssüf ki, biz hələ də nəinki ayrıca kanalda, hətta internet televiziyalarında belə bizim Milli Məclisin canlı şəkildə efirə verilməsini görmürük. Məncə bunun olması ölkədə demokratikləşməyə xidmət edər, əhalinin parlamentlə əlaqəsinə və deputatların fəaliyyətinə müsbət təsir edər. Hətta 63-cü ilə qədər müstəmləkə olan Afrikada belə bu hal mövcuddur. Amma 1918-ci ildə çox müasir, çağdaş parlamenti yaradan Azərbaycan xalqı hələ də bu üstünlüklərdən bəhrələnməyib. Düşünürük ki, bu barədə Milli Məclisin sədrinə müraciət edək. O cavaba uyğun olaraq da sonrakı hərəkətlərimizi nizamlayaq.

***- Müharibədən sonrakı ərəfəyə diqqət çəksək, ictimai-siyasi gündəmdə, siyasi müxalifət partiyalarının fəaliyyətində hansı yenilənməni müşahidə edirsiz?***

- Əslində müharibədən əvvəl bir proses başladı. Prezident Admnistrasiyasında xüsusi bir şöbə yaradıldı, sonradan həmin şöbənin profili bir qədər də genişləndi, qanunvericilik hakimiyyəti, yerli icra hakimiyyətləri ilə müəyyən əlaqələr saxlandı. Sonra hakimiyyət tərəfindən dialoq deyilən, bizim tərəfimizdən dialoqa hazırlıq adlandırdığımız bir proses başlandı. Nəticədə bir sıra partiyaların qeydiyyat məsələsi həll olundu, eləcə də partiyaların qurultaylarının nəticələrinin qeydiyyatı aparıldı. Ofislərin verilməsi müharibədən sonrakı mərhələyə düşdü və partiyalara maraq nisbətən artdı. İqtidar və onun opponentləri arasında, bütövlükdə qeyri-hökumətlə siyasi hakimiyyət arasında bir insani münasibətlər müstəvisində hərəkətlənmə oldu və sonradan dayandırıldı. Buna səbəb kimi pandemiyanın başlanması əsas gətirildi və müharibə bu prosesi bir qədər də dayandırdı. Açığı müharibədən sonra bu istiqamətdə bir aydınlaşma olmadı. Gözləntimiz ondan ibarət idi ki, məlum prosesin davamı olaraq partiyaların hüquqi əsası möhkəmlənsin. Bilirsiz ki, 1992-ci ildə Siyasi Partiyalar Haqqında qanun qəbul olunandan sonra ona 14-15 dəfə dəyişiklik edilib. Hazırda belə söz-söhbət var ki, Siyasi Partiyalar Haqqında yeni qanun hazırlanır. Bu məsələ ilə bağlı ciddi narahatlığım var ki, bu bir qədər sərt çərçivəyə alınma istiqamətində ola bilər. Hələlik layihə ortada olmadığına görə bu barədə konkret danışmaq mümkün deyil.

***- Konkret nədən narahatsız?***

- Ümumiyyətlə, bütün dünyada siyasi partiyaların partiya şəklində birləşmənin daha sadə və asan olması tendensiyası var. Amma söhbətlər var ki, Azərbaycanda siyasi partiyaların yaranması ağırlaşa bilər. Belə bir məsələ ortaya gələrsə biz də öz münasibətimizi bildirəcəyik. Məsələn bir sıra ölkələrdə 20-30 adam toplanır və bir partiya təsis olunur və o da qeydə alınır. Bizdə isə minimum 1000 nəfərin siyasi partiyaya üzv olması tələbdir. Deyilənə görə bu sayın 5000 həddinə çatdırılması gözlənir.

Mən bunun əleyhinəyəm. Siyasi partiyalara yönəlik olan bu addım açılımın, islahatların yenidən geriyə atılması olar. Xüsusən də artıq formal-hüquqi təşkilatlanma yox, qeyri-formal təşkilatlanmanı aktuallaşdıra bilər. Bu nəinki ölkədə guya tam idarə olunan siyasi partiyalar toplusu yaradacaq, əksinə heç bir idarəçiliyə sığmayan açıq və gizli qeyri-formal təşkilatlanmaya rəvac verəcək. Bizim yanaşmamız odur ki, siyasi partiyaları qanun idarə etsin.

***- Müxalifət özü bu islahatlara hazırdırmı?***

- Müxalifətin müxtəlif bölmələri var. Bir var möhtədir müxalifət, bir də var radikal deyilən müxalifət. İndi radikal da, möhtədir də özünü əsl müxalifət hesab edir. Eyni zamanda iqtidarın müəyyən dairələri var ki, islahatları gözdən salmaq üçün bəzən "radikal müxalifətin xaricdən ötürülmüş sifarişlə ölkədə qarışıqlıq yaratmaq" rəyini yaratmağa çalışırlar. Hələ ki, bu qeyri-müəyyənlik qalır. Yaxın dövrdə bu prosesin hara qədər getməsi ilə bağlı aydınlıq yaranacaq. Mənim fikrimcə, bu, qələbənin 1 ilinin tamamında sülh müqaviləsinin bağlanması mərhələsidir. Lakin daxildə o islahatlar getməsə, düşmən üzərində, hərb meydanında qazanılmış qələbə, ölkənin daxilində ciddi tərəqqəyə malik olan islahatlar tamamlanmasa, problemlər qalacaq. O baxımdan da daxili və xarici məsələləri heç vaxt bir-birindən ifrat şəkildə ayırmaq olmaz.

> “ *Söhbətlər var ki, Azərbaycanda siyasi partiyaların yaranması ağırlaşa bilər*

***- Belə fikirlər də var ki, əgər demokratik islahatlar yoxdursa məhz ona görə Qərb, Avropa ölkələri Ermənistana milyardlar ayırdığı halda, bunu bizə etməyəcək. Dünyanın Azərbaycana olan ikili yanaşmasına bu bəhanələr səbəb ola bilərmi?***

- Düşmən və onun havadarları Azərbaycana qarşı apardığı fəaliyyətdə bu və ya digər problemlərdən bəhanə kimi istifadə edir. Gəlin o bəhanələri onların əlindən alaq. Əgər bizim bir sıra problemlərimiz düşmən tərəfindən əleyhimizə istifadə olunursa, o daxili problemi həll eləmək lazımdı. Ona görə yox ki, bu bizim stratej inkişafımızla bağlı olan məsələdir. Həm də ona görə ki, düşmən bu məsələlərdə bizim əleyhimizə istifadə etməsin. Ona görə də mən o ideologiyanın tərəfdarıyam ki, demokratiya həm də təhlükəsizlik məsələsidir. Demokratiya bəzən insan, hüququ və azadlıqlarından daha artıq daxili milli təhlükəsizlik kimi meydana çıxır. Hətta bəziləri demokrat deyillərsə də ən azı təhlükəsizliyimiz naminə bu cür məsələlər üzərində düşünməlidirlər.

***- Azərbaycan sülhməramlıların bölgəyə gəlməsindən yayına bilərdimi?***

- Əvvəla sülhməramlıların adını dəqiq ifadə eləsək, bu Rusiya silahlı qüvvələrin leqal şəkildə gəlib Azərbaycan torpaqlarında yerləşməsidir. Guya Rusiya burdan getmişdi? Dağlıq Qarabağın işğalı Rusiyanın birbaşa iştirakı və ermənilərə veridiyi dəstək sayəsində mümkün olmuşdu. Bu da böyük problemdir. Biz deyirik ki, "Rusiya sülhməramlılarının müvəqqəti olaraq yerləşdiyi ərazilər", ruslar öz müdafiə nazirliklərinin saytında rəsmən deyirlər ki, "Rusiya sülhməramlılarının məsuliyyət zonası"... Onlar burda "müvəqqəti" sözünü işlətmirlər. Ona görə də bizə məcbur olduğumuz bu problem üzərində düşünmək lazımdır. 5 ilin artıq bir ili gedib. Çalışmaq lazımdır ki, 4 ildən sonra bizim torpağımızda nə ad altında olursa-olsun bir dənə də xarici silahlı qüvvə olmasın. Və bizim Azərbaycan torpağının heç bir kvadrat metdi də Azərbaycanın azad olunmayan torpağı adlandırılmasın. Bu hazırda bizim qarşımızda duran bir hədəfdir, vəzifədir. Məncə Rusiya sülhməramlılarının 9-10 noyabr tarixli sənəddən kənar fəaliyyəti bütövlükdə Azərbaycanın iqtidarlı, müxalifətli bütün cəmiyyətini narahat edir. Biz bu yaxınlarda gördük ki, bu narahatlıq o sənədə imza atmış Azərbaycan Prezidentinin SNN Türkə verdiyi müsahibədə də açıq şəkildə ifadə olundu. Son dövrdə bu mövzuya qadağa kimi baxan şəxslər də artıq o məsələdə ciddi narahatlıqlarını ifadə eləməyə başlayıblar. Bu ümummilli məsələdir. Azad olunmayan torpaqları azad eləmək və Azərbaycanın bütün sərhədləri daxilindəki əraziləri, o cümlədən 3 min 400 kvadrat km civarinda ərazidə bizim müqəddəs bayrağımızın dalğalanmasına, dövlət orqanlarının səlahiyyətinin bərpa olunmasına, suverenliyimizin tam şəkildə bərpa olunmasına nail olmaqdır.

***- Rusiya sülhməramlılarının öz missiyalarından kənar davranışını, erməniləri silahlandırmasını və sair neqativləri əsas götürən ölkənin ictimai-siyasi kəsimi onların vaxtından əvvəl bölgəni tərk etməsini istəyir. Müddət bitmədən sülhməramlıların bölgədən çıxması nə dərəcədə realdır?***

- Mən Azərbaycanın Əfqanıstanla müqayisə olunmasının əleyhinə olanlardanam. Əfqanıstan özünün tarixi, yaşam şərtləri, mentaliteti, siyasi mədəniyyəti, dövlətçilik ənənələri baxımdan tamamilə fərqli bir ölkədir. Dünyanın super gücü olan Amerikanın silahlı qüvvələri bu gün Əfqanıstanı tərk elədi. Bütün dünya gördü ki, ən müasir silahları ilə silahlanmış ən qüdrətli güc də geri çəkilməyə və qaçmağa məcbur olur. O baxımdan Rusiyanın burdakı təsir gücünü, təhdid, təhlükə dərəcəsini qəbul eləməklə yanaşı, heç bir halda bunu millətdə təslimçilik duyğularının aşılanması, vahimə kimi qəbul olunması, kollektiv təhlükə, qorxu hissinin yaradılması kimi də təbliğ eləmək olmaz. Rusiya reallığı var, amma onun vahiməyə çevrilməsinə imkan vermək olmaz. Buna baxmayaraq, mən Rusiya sülhməramlı qüvvələrinin burdan çıxmasını real hesab edirəm. Bunun bir sıra yolları var. 1921-ci ildə Qars müqaviləsi əsasında yaranmış təhlükəsizlik sistemi yenidən qurulmalıdır. Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan arasında yeni təhlükəsizlik sistemi qurulmalıdır. O halda burda Rusiyanın, Türkiyənin və digər regionda maraqları olan dövlətlərin maraq və mənafeləri gözlənilməklə əsasən də Azərbaycanın, Türkiyənn marağı gözlənilməklə bu məsələləri nizamlamaq olar. Bu hansısa rus sülhməramlılarının burda əbədi qalmasını nəzərdə tutmur. Hesab edirəm ki, artıq Türkiyəsiz burda davamlı və dayanıqlı təhlükəsizliyimizin təminatı mümkün deyil. Türkiyə bu məsələdə bir dövlət olaraq müstəqil iştirak edir, ikinci bir tərəfdən də bura Amerikanı, Fransanı çağırıb gətirməyə ehtiyac yoxdur. Monitorinq mərkəzinin bu istiqamətdə fəaliyyətini artırmaq, onu fəallaşdırmaqla da nail olmaq lazımdır. Müqavilə sistemi yaranarsa, Türkiyə və Rusiya regionda təhlükəsizlik sistemini birgə və bərabər qurarlarsa o halda bizi narahat edən bir sıra məsələlər həll olunar.

***- Ermənistan sülhə gəlmir, Azərbaycan sərhəddində tez-tez atəşkəsi pozur, rəsmi şəkildə sülh danışıqlarına etiraz edir. Belə olan surətdə sülh müqaviləsi kiminlə bağlanacaq?***

- Sülh müqaviləsinin imzalanması üçün ciddi əsaslar var. 1993-cü ilin yayından sonra ilk dəfədir ki, Ermənistan və Azərbaycan arasında geniş sülh müqaviləsinin imzalanmasına şərait var. Azərbaycan özünün iradəsini ifadə edib. Türkiyə, Rusiya da bu prosesdə iştirak edir və razılıqlarını bildiriblər. Ermənistan tərəfi müəyyən şərtlərlə olsa da sülh müqaviləsinə müəyyən razılıq jestlərini göstərməyə başlayıb. Hər halda sülh reallaşa bilər. Son günlərdə Azərbaycan prezidenti Şuşada çıxış elədi ki, biz hazırıq, Ermənistan tərəfi ağıllı hərəkət eləsə Ermənistan üçün də şans yarana bilər. Ondan bir gün əvvəl isə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışında "Ermənistan bu tarixi şansı buraxmamalıdır"-dedi. Lakin burda əsas qüvvə Rusiyadır. Sülh müqaviləsinin ləngiməsinin əsl səbəbi Rusiyadır. Ermənistana ürək -dirək verən, Fransa, Amerika ilə yanaşı Rusiyadır. Lakin mən yaxın bir vaxtda bu istiqamətdə ciddi xarakterli məsələlərin baş verməsini gözləyənlərdənəm.

***✍ Tahirə***

# Gənclərimiz qəhrəman şəhidlərimizin həyat yolunu nümunə hesab edirlər

## Açıqlama



**Könül Nurullayeva,**
Milli Məclisin deputatı

> “ *Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər*

***Azərbaycanın gələcəyi gənclərin əlindədir. Ölkəmizdə dövlət səviyyəsində gənclərə böyük etimad var. Yeni təyin olunan gənclər və idman naziri Fərid Qayıbovu qəbul edərkən Prezident İlham Əliyevin də söylədiyi kimi, Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır.***

Milli ruh, vətənpərvərlik ruhunda tərbiyə alan gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır. Təbii ki, bunun üçün ilk növbədə düzgün tərbiyə işləri aparılmalı, gənclərin yüksək biliklərə, intellektə yiyələnərək, cəmiyyətdə öz yerini tapmaları təmin olunmalıdır. Bu məsələdə hər bir vətəndaş məsuliyyət daşıyır. Qloballaşma proseslərinin mənfi fəsadlarına toxunmaqla dövlət başçımız bu təhlükənin mövcudluğunu bir daha diqqətə çatdırdı. Təcrübə göstərir ki, yalnız intellektual, sağlam düşüncəli gəncləri təsir altına salmaq mümkün deyil. Təbii ki, burada vətənpərvərlik, milli-mənəvi dəyərlərə bağlılıq başlıca şərtdir. Biz 44 günlük Vətən müharibəsində bunun bir daha şahidi olduq. Döyüşlərdə canından keçən gənc şəhidlərimiz vətənpərvər, təəssübkeş Azərbaycan gənci obrazını yaradıblar. Azərbaycan gənci deyəndə bu gün ilk olaraq Xudayar, Cəbrayıl, Muxtar kimi yüzlərlə fədakar, qəhrəman oğullarımız yada düşür. Təsadüfi deyil ki, bu gün müzəffər xalqın gəncləri məhz 44 günlük Vətən müharibəsində tarix yazan qəhrəmanlarımızdan örnək götürür, onların keçdiyi qısa, lakin şərəfli həyat yolunu özləri üçün nümunə hesab edirlər.

Prezident İlham Əliyevin də söylədiyi kimi, bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Həqiqətən də bunun çox böyük mənəvi və psixoloji mənası var. Bundan sonra biz müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi yaşayacağıq. Müzəffər xalqın gəncləri isə yeni mərhələdə Böyük Qələbəni əks etdirən şanlı tarixi yaşatmalı və qorumalıdır.

***✍ Azad***

# Bakının Moskvadan tələbi

## Müzakirə

***İlk 300 günlük təcili rejimdən sonrat hazırda Azərbaycan və Rusiyaya sülhməramlıların qarşıdakı 4 ildə normal fəaliyyət göstərməsi üçün bu qüvvələrin funksiyalarını reqlamentləşdirmək lazımdır. Hafta.az xəbər verir ki, bu fikirləri rusiyalı ekspert Aleksey Naumov deyib.***



Onun sözlərinə görə, Rusiyanın sülhyaratma formatı indi hüquqi cəhətdən möhkəmləndirilməyə ehtiyac duyur:

"Biz noyabrın 9-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli bəyanatlarının bu qüvvələrin yerləşdirilməsi ilə bağlı hüquqi çərçivə yaratdığını qəbul edirik. Lakin bu sənəddə sülhməramlı qüvvələrin fəaliyyətinin miqyası göstərilməyib. Ölkə liderlərinin razılaşdığı status parlamentlər tərəfindən təsdiqlənməyib. Bütün bunlar onlara dayanıqlı hüquqi zəmin vermir".

Onun sözlərinə görə, Bakı sülhməramlıların mandatını təyin edərək onların konkret hüquq və vəzifələrinin müəyyənləşdirilməsini istəyir. Qarabağ Azərbaycan ərazisidir. Azərbaycan bu faktın Rusiya ilə razılaşmalarda əlavə təsdiqini tələb edir. Azərbaycan Bakının diversant adlandırdığı, Ermənistandan Qarabağa göndərilən hərbiçilərin sülhməramlılar tərəfindən qarşısının alınmamasına etirazını bildirir".

Politoloq bildirib ki, Ermənistan sülhməramlıların mandatı ilə bağlı danışıqlarda iştirak etmir. Səbəb isə çox sadədir. Rusiyalı hərbiçilər Azərbaycan ərazisindədir və bu məsələdə başlıca oyunçu Bakıdır: "Ermənistan üçtərəfli sazişin iştirakçısı kimi öz mövqeyi və hüququ var. Amma burada razılaşmalı olan tərəflər Moskva və Bakıdır".

**■Politoloq Natiq Cəfərli hafta.az-a şərhində bildirib ki, Azərbaycanda rus sülhməramlılarının yerləşdirilməsi üçtərəfli müqaviləyə əsasən baş verib.**

Onun sözlərinə görə, noyabrın 10-da imzalanan sənədin əsasında sülhməramlıların say tərkibi və səlahiyyət müddətinin sərhədləri müəyyənləşib. Və Azərbaycan qanunvericiliyinə görə xarici ölkənin qoşununun Azərbaycan ərazisində qalması üçün xüsusi parlament qaydasında təsbit olunmuş prosedur qaydalar lazımdır.

Politoloq hesab edir ki, Azərbaycan doğru olaraq o zaman məsələni parlamentə gətirmədi ki, məsələ asılı vəziyyətdə qalsın.

"Hazırda bizim rus sülhməramlılarına qarşı çoxlu suallarımız, iradlarımız var. Onların bu günə qədər göstərdikləri fəaliyyət yumşaq desək, qaneedici deyil. Nəhayət son zamanlar baş verən hadisələr, sülhməramlıların Ermənistan yetkililərinin Qarabağa gedib-getməməsinə maneçilik törətməməsi, orda qondarma qurumun üzvləri ilə görüşlərin keçirilməsi, onları defakto tanıması, tərksilah etməməsi Azərbaycan tərəfdə ciddi narahatlıq doğurur. O cümlədən, Laçın dəhlizinə nəzarətin Rusiya tərəfindən həyata keçirilməsində də problemlər var".

**Politoloq hesab edir ki, Hikmət Hacıyevin açıqlaması Rusiyaya verilən o mesajdır ki, əgər Azərbaycanı qane etməyən məqamlar davam edəcəksə, həmin sülhməramlı qoşunların hüquqi statusu ilə bağlı ayrıca prosedur qayda tətbiq oluna bilər.**

"Məsələn parlament toplanıb Azərbaycan ərazisində rus sülhməramlılarının olmasını qadağan edən qərar qəbul edə bilər. Əslində rus sülhməramlılarının çıxarılması proseduru başlana bilər. Elə bir fürsət, imkan və belə bir qəliz idarəetmə mexanizminə xas oyun qaydaları tətbiq eləmək mümkündür".

**Politoloq Moskvanın Azərbaycana gətirdiyi 1960 hərbçi və onun sayının artıması ilə bağlı baş verən məsələlərlə bağlı Rusiyanın oyun oynadığını deyib. Onun fikrincə, əslində qoşunların, ordunun sayında bəlkə də bir dəyişiklik yoxdur.**

"Amma protokolun bəzi bəndlərində infrastruktur layihələrin, qaçqınların geri köçürülməsi ilə bağlı bəndlər var. Rusiya tərəfi o bəndlərdən istifadə edərək Fövqaladə Hallar Naziliyinin, müxtəlif təşkilatların nümayəndələrindən ibarət xeyli sayda insan gətirib. Amma onlar hərbçi deyil. Hərbçi olmasalar da, Rusiaya nazirliklərinin və dövlət idarələrinin işçiləridirlər. Məsələn, FHN-nin işçilərinin silah daşıma hüququ var."

N.Cəfərli bildirib ki, Rusiya müəyyən prosedur qaydalarına riayət edərək özünün regiondakı mövcudluğunu artırmaq istəyir.

"Məktəblər tikir, regiona ayrıca dövlət, hökumət nümayəndələrinin gəlişini təmin edir, xüsusi mühafizə təşkilatları ilə müqavilələr bağlayaraq xüsusi mühafizə dəstələri yaradırlar. Rusiya rəsmi rəqəmi keçmədiyini bəyan etsə də, bu yolla faktiki olaraq Qarabağdakı mövcudluğunu artırmağa çalışır".

Politoloq sülhməramlıların statusunun müəyyənəşdirilməsi ilə bağlı bildirib ki, əslində Azərbaycan qanunvericiliyində xarici hərbi qüvvələrin Azərbaycanda olmasına qadağa var. Bu qadağanın aradan qaldırılmasının yeganə yolu parlamentin xüsusi qərarıdır.

"Hətta Prezidentin belə bir qərar vermə səlahiyyəti yoxdur. Sadəcə olaraq prezident ya o qərarı təsdiqləyə bilər, ya da geri qaytarar. Amma parlamentin qərarı olmadan belə hərbi birləşmələrin Azərbaycan ərazilərində olması faktiki olaraq qeyri-qanunidir. Bunu bilərərkdən belə asılı vəziyyətdə saxladılar ki, əlimizə əlavə imkanlar olsun. Rusiya ilə danışıqlarda daha sərt mövqedən çıxış etməyə imkanımız olsun".

**O ki qaldı, sülhməramlı statusunun verilməsi ilə bağlı məsələyə, politoloq bildirib ki, bu üçtərəfli müqavilə ilə təsbit olunub.**

"Amma Azərbaycan ərazisində fəaliyyət göstərmələri üçün ölkəmiz xüsusi qərar qəbul etməlidir. Rusiya sülhməramlıların mandatı 2025 -ci ilin noyabrın 9-da bitir. Biz 6 ay qalmış rus sülhməramlılarının regiondan çıxarılmasını tələb edə bilərik. Bu da 2025-ci ilin may ayının 15-inə düşür. Biz 2025-ci il may ayının 10-da məsələ ilə bağlı mövqeyimizi açıqlamalıyıq. Bunun üçün isə qanuni çərçivələr yoxdur, sadəcə üçtərəfli müqavilələr var. Parlament sərt qanunlar qəbul edib sülhməramlıların fəaliyyət istiqamətlərini, onların səlahiyyətlərinin hədlərini, çıxma müddətini konkret şəkildə göstərə bilər".

***✍ Azad***

# Taliban hökumətinin nazirləri

## Araşdırma

***Çoxdandır gözlənilən qərar elan olundu - "Taliban" Əfqanıstanı idarə edəcək hökuməti elan elədi. İndi qalır bu hökumət Əfqanıstanı hara qədər aparacaq və xarici dünya Kabillə münasibətlərinin necə quracaq. Maraqlı olar deyə, gəlin hökumətin tərkibini nəzərdən keçirək:***

**1. Əfqanıstan İslam Əmirliyinin əmiri Mövləvi Heybətullah Axundzadə:**

1960-cı ildə Qəndəharın Pəncvay rayonunda, əslən peştun olan Nurzay tayfasında doğulub. Diyobənd mədrəsələrdə təhsil alan Axundzadə öncə Mövləvi, daha sonra isə Şeyxül Hadis tituluna yiyələnib.

Sovet işğalına qarşı savaşıb, 1994-cü ildən sonra "Taliban"da dini və hüquqi vəzifələri tutub. "Taliban"nın hərbi, hüquqi və social sferada yenilənməsində, ümumiyyətlə, hərəkatın bütün orqanlarının müasirləşdirilməsində ciddi rol oynayıb. 2016-cı ilin may ayında Molla Mansur ABŞ əsgərləri tərəfindən öldürüldükdən sonra "Taliban"ın lideri seçilib. "Taliban" nümayəndələri onu "möminlərin lideri" və ya "Əmir əl-möminin" adlandırır. Qeyd edək ki, Axundzadə 2016-cı ildən öncəki 15 il boyunca (2001-2016-cı illər) Pakistanın cənub-qərbində yerləşən kiçik Kuçlak qəsəbəsində yaşayıb və oradakı məsciddə öz dünyagörüşlərini, islami fikirlərini insanlara çatdırıb, uşaqlara dini dərslər verib və ardıyla da vaizlik yaradıb.

**2. Əfqanıstanın Baş naziri Molla Məhəmməd Həsən Axund:**

Molla Məhəmməd Həsən Axund 1954-cü ildə Qəndəharın Argandab rayonunda dünyaya göz açıb. Peştun millətindən olan Axund, təhsilini əvvəlcə öz rayonunda, daha sonra isə Pakistan mədrəsələrində alıb. SSRİ-yə qarşı savaşan Axund "Hizbi İslami Halis" təşkilatında fəaliyyət göstərib. Bu dövrdə "Taliban" lideri Molla Ömərlə yaxın münasibət qura bilib. "Taliban"ın hakimiyyəti illərində Qəndahar valise olub, daha sonra isə Xarici İşlər Nazirliyində və Baş nazirin yanında çalışıb.



**3. Baş nazirin 1-ci müavini Molla Əbdülqani Biradər Axund:**

Molla Biradər 1968-ci ildə doğulub. Dürrani peştunlarından olan Biradər, Popalzay tayfasının alt qanadı olan Sadozaylara mənsub ailədə böyüyüb. Qurucu lider Molla Məhəmməd Ömərdən sonra hərəkatda ən yüksək çinli isim olan Biradər ilk təhsilini Dyobənd mədrəsəsində alıb. Sovetlərə qarşı mübarizə aparıb.

2001-ci ildən sonra Pakistanda və Əfqanıstanda, Molla Ömərin təlimatıyla ABŞ və NATO-ya qarşı mübarizənin öndəri olub. 2010-cu ildə ABŞ-ın müraciətinə əsasən Pakistan təhlükəsizlik qüvvələri tərəfindən həbs edilib və 8 ildən sonra, yenə də ABŞ-ın istəyi əsasında Pakistan həbsxanasından azadlığa buraxılıb. O vaxtdan bu günədək "Taliban"ın siyasi heyətinə rəhbərlik edib.

**4. Baş nazirin 2-ci müavini Mövləvi Molla Əbdüssəlam Hanəfi:**

Mövləvi Əbdüssəlam Hanəfi ölkənin şimalında yerləşən Fəryab vilayətində doğulub. Milliyətcə özbək olan Hanəfi özbəklərlə yanaşı, digər türk xalqlarının da dilini yaxşı blir. Onun özbək, peştun, ingilis, fars, ərəb, urdu, qırğız, türkmən və türkcə bildiyi deyilir. "Taliban"ın 1996-2001-ci illərdə mövcud olan iqtidarında Fərah vilayəti təhsil idarəsinin müdiri olub, sonra Təhsil nazirinin müavini və nəhayət Cevzcan vilayətinin valise təyin olunub. O, islami elmlər və mədəniyyət sahəsndə peşəkarlaşmış mütəxəssisdir. Hanəfi eyni zamanda "Taliban"ın siyasi ofisinin liderinin köməkçisidir.

**5. Müdafiə naziri Mövləvi Məhəmməd Yaqub Mücahid:**

"Taliban"ın qurucu lideri Molla Məhəmməd Ömər Mücahidin böyük oğlu olan Yaqub Mücahid 1990-cı ildə doğulub. Müharibə illərində Diyobənd mədrəsələrində təhsil almış Yaqub, 2001-ci ildə hərəkata üzv olub. Dini təhsil almaqla yanaşı, döyüşlərdə iştirak edib. 2016-cı ildə "Taliban"ın güney bölgəsinə cavabdeh hərbi lider postuna yüksəlib. Əfqanıstanın keçmiş silahlı qüvvələri ilə baş vermis döyüşlərə məhz o rəhbərlik edib. Hətta 2015-ci ildə onun ölməsi haqda xəbərlər də yayılmış, amma sonradan təkzib edilmişdi.

Yerli mətbuatın yazdığına görə, təxminən 31 yaşlı Molla Məhəmməd Yaqubun hətta, Ahtar Mansur 2016-cı ildə öldürüləndən sonra "Taliban"ın yeni lideri seçilməsi təklifi səsləndirilib. Amma Mansurun hələfinin seçildiyi toplantıda "Taliban" komandanlarından biri, Molla Yaqubun çox gənc olmasını və döyüş təcrübəsinin olmamasını səbəb göstərərək liderlik üçün Axundzadənin namizədliyini təklif edib. "Taliban" liderləri arasında daha gənc və mülayim insan olan Yaqub, bir az da aatsına görə çox sevilir, hörmət göstərilir. Amma Pakistanda doğulub-böyüməsi, orada təhsil alıb, həyata addım atmasından dolayısı "Taliban"ın daxilində belə özünə qarşı mövqe tutanları var. Hakimiyyət devrilmədən öncə Əfqanıstanın kəşfiyyat orqanları Yaqubu "özünü haqq sahibi görən" və "Əfqanıstanın reallıqlarından xəbərsiz" biri kimi təqdim edirdi.

**6. Daxili İşlər naziri Molla Siracəddin Hakkani:**

Siracəddin Hakkani "Taliban"ın məşhur komandirlərindən Mövləvi Cəlaləddin Hakkaninin oğludur. 1990-cı illərdən "Taliban"da hərbi vəzifələr tutmaqdadır. Xüsusilə də 2001-ci ildən sonra ABŞ-a qarşı döyüşlərin idarə olunmasında fəal iştirak edib. ABŞ tərəfindən başına 10 milyon dollar mükafat qoyulmuş bu şəxsin 4 qardaşı amerikalılar tərəfindən qətlə yetirilib. Əfqanıstan - Pakistan sərhədinin hər iki tərəfində həyata keçirilmiş silahlı hücumların təşkilatçısı kimi tanınır. Mücahidlərin məşhur komandiri, vaxtilə "Əl-Qaida" terror təşkilatının lideri Üsamə bin Ladenlə yaxından dostluq etmiş Cəlaləddin Hakkaninin oğlu olan Siracuddin, "Taliban"ın Pakistan - Əfqanıstan sərhədindəki maliyyə və hərbi varlıqlarını idarə edən "Hakkani dəstəsi"nin lideri idi. Məhz bu təşkilat Kabildəki məşhur otellərdən birinə silahlı basqın düzənlənməsində, eyni zamanda keçmiş dövlət başçısı Həmin Kərzaiyə suiqəsd cəhdində və Hindistanın Kabildəki səfirliyinə intihar hücumunda günahkar bilinir.



**7. Daxili İşlər nazirinin müavini Mövləvi Nur Cəlal:**

Əfqanıstanın şərq vilayətlərindən birində doğulan, peştun əsilli Nur Cəlal 1990-cı illərdə "Taliban"ın Kunar vilayətində nümayəndəsi olub. Yüksək səviyyədə dini təhsil alıb. 2010-ci ildə və sonrakı dönəmdə Nanqarhar valisi və hərbi nümayəndə vəzifələrini icra edib. O, həm də təhlükəsizlik qüvvələrinin keçmiş agentidir.

**8. Daxili İşlər nazirinin Narkotiklə mübarizə üzrə müavini Molla Əbdülhaq:**

Əvvəllər Herat vilayətinin "Taliban"çı səlahiyyətlilərindən olan və yüksək səviyyədə dini təhsil görmüş Molla Əbdülhaq Axund, "Taliban"ın Səhiyyə İşləri Komissiyasının rəhbəri işləyib.

**9. Xarici işlər naziri Mövləvi Əmirxan Müttəki:**

1968-ci ildə Paktiya əyalətində doğulmuş Müttəki "Taliban"ın iqtidarı dövründə İnformasiya və Mədəniyyət naziri vəzifəsini tutub. "Taliban"ın media sahəsinin qurulmasında vacib addımlar atmış Müttəki, hərəkatın siyasi heyətinin öndə gələn nümayəndələrindən olub.

**10. Xarici İşlər nazirinin müavini Şirməhəmməd Abbas Stanikzay:**

1963-ci ildə doğulmuş Stanikzay 1970-ci illərdə Hindistanda hərbi təhsil alıb. Sovetlərə qarşı müharibədə əvəzsiz rol oynayan Stanikzay Taliban"da yeganə şəxsdir ki, mədrəsə təhsili almayıb. "Taliban"ın iqtidarında Xarici İşlər və Səhiyyə nazirliklərində müavin postu tutmuş Stanikzayın 5 dildə sərbəst danışdığı bildirilir. 2015-ci ildə "Taliban"ın Dohadakı siyasi ofisinin rəhbəri təyin edilən Şirməhəmməd Abbas Stanikzay, Əfqanıstan hökuməti ilə müzakirələrdə "Taliban" heyətinin ikinci əsas siması olaraq qatılıb. O, hətta "Taliban"ı bir sıra ölkələrə səfərlərdə təmsil də edib.

**11. Maliyyə naziri Molla Hidayətullah Bədri:**

1972-ci ildə Qəndaharda doğulmuş Bədri, təhsilini yerli mədrəsələrdə alıb. Uzun illər "Taliban"ın zəkat və vergi quruluşlarında işləyib. Eynı zamanda, Molla Ömərin maliyyə işləri üzrə köməkçisi olub. 2001-ci ildən sonra da yüksək vəzifələrdə çalışıb. 2013-cü ildə "Taliban"ın Maliyyə Komissiyasınını sədri seçilib.

**12. Təhsil naziri Mövləvi Nurullah Munir:**

Yerli Diyobənd mədrəsələrində yüksək dini təhsil alıb. "Taliban"ın ali səviyyəli hüquqi və dini mövqelərində post tutub. Onun haqqında daha geniş məlumat verilmir.

**13. İnformasiya və mədəniyyət naziri Molla Heyrullah Heyrhva:**

1967-ci il təvəllüdlü "Taliban" mənsubu Heyrhva İraq müharibəsi dönəmində amerikalıların istəyi əsasında Pakistan təhlükəsizlik qüvvələri tətəfindən həbs edilərək ABŞ-a təslim edilib, məşhur Quantanamo zindanına salınıb (12 il). "Taliban" iqtidarında hökumətin sözçüsü olub, Daxili İşlər Nazirliyində çalışıb, Kabil və Heratda vali işləyib, Məzari Şərifin hərbi komandiri postunu tutub. O, Haqqaniyyə Mədrəsəsini bitirib. "Taliban"ın qurucularından sayılan Heyrhva sovet ordusuna qarşı mübarizə aparıb.

**14. İnformasiya və Mədəniyyət nazirinin müavini Zəbihullah Mücahid:**

Zəbihullah Mücahid "Taliban"da kimliyi ən çox gizlədilən şəxsdir. Belə deyilir ki, onun həyatı hər zaman təhlükədə olub, ABŞ agentləri hər yerdə onu axtarıb. 15 ildən artıqdır "Taliban"ın sözçüsü olan Mücahid, üzünü ilk dəfə Kabil alındıqdan sonra göstərib. O, da digərləri kimi Diyobənd mədrəsələrində dini təhsil alıb.

**15. İqtisadiyyat naziri Kariddin Məhəmməd Hanif:**

Tacik əsilli Hanif 1955-ci il təvəllüdlüdür. "Taliban"ı Tokioda keçirilmiş beynəlxalq konfransda təmsil edib, Bədəxşan əsilli və hərəkatın məşhur tacik nümayəndələrindən olan Hanif, "Taliban"ın iqtidarı zamanında Planlaşdırma və Ali təhsil nazirləri vəzifəsində olub. "Taliban"ın siyasi ofisinin Türkiyə və Rusiya şöbəsinin rəhbəri işləyib.

**16. Həcc və Vəqflər naziri Mövləvi Nur Məhəmməd Sakib:**

1958-ci ildə Kabilin Bağrami rayonda doğulan, peştun əsilli Sakib Diyobənd mədrəsəsində təhsil alıb. "Taliban" iqtidarında Ali Məhkəmənin hakimi olub. Sonrakı illərdə "Taliban"ın fətva mərkəzi olan "Darül İfta"da çalışan Sakib, "Taliban"da bir çox din adamının yetişməsində rol oynayıb.

**17. Ədliyyə naziri Mövləvi Əbdülhakim Şeri Hakkani:**

1967-ci ildə Qəndəharda doğulan Hakkani də Diyobənd mədrəsələrində təhsil alıb. O, təhsil sahəsində mütəxəssisləşərək "Şeyxül Hədis" titulunu qazanıb. Bu şəxs "Taliban"ın keçmiş "Məhkəmə sədri" olub. İndiyədək təşkilatla hökumət arasında aparılan müzakirələrə məhz Hakkani rəhbərlik edib. Əbdül Həkim Hakkani eyni zamanda, Din Adamları Şurasının da sədri olub. Onun Axundzadənin ən etibarlı adamı olduğu deyilir.

**18. Sərhədlər və Tayfalar naziri Molla Nurullah Nuri:**

1958 və ya 1967-ci ildə doğulduğu deyilir. Molla Nurullah Nuri də vaxtilə Quantanamoda məhbus həyatı yaşayıb (12 il). Keçmiş "Taliban" iqtidarı dönəmində Bəlx, Lagman və Bəqlan vilayətlərində vali vəzifəsində çalışıb.

**19. Regional inkişaf naziri Molla Məhəmməd Yunus Axundzadə:**

Əvvəllər "Taliban"ın Zabul vilayətində vali olub. Diyobənd mədəsələrində dini təhsil almış Axundzadə haqqında detallı məlumat yoxdur.

**20. Dəvət və İrşad, Yaxşılığı əmr edib, pislikdən qaçma naziri Şeyx Məhəmməd Xalid əl-Hanəfi:**

Bölgədəki Diyobənd mədrəsələrində dini təhsil alıb. Uzun müddət "Taliban"ın Dəvət və İrşad Komissiyasının sədr müavini vəzifəsində çalışıb.

**21. İctimai işlər naziri Molla Əbülmənnan Öməri:**

Uruzqan vilayətində doğulub. Peştun əsilli Öməri "Taliban"ın qurucu lideri Molla Ömərin qardaşıdır. "Taliban" Ali Şurasının üzvü olan Öməri, ABŞ-la müzakirələrdə də iştirak edib. Öməri "Taliban"ın "Mülki itkilərin qarşısının alınması" komissiyasının üzün müddət rəhbəri olub.

**22. Mədən və Neft naziri Molla Məhəmməd İsa Axund:**

"Taliban"ın önəmli nümayəndələrindən olan Axund, hərəkatın Paktika valisi və Qəndəharda hərbi nümayəndəsi olub. Qəndəharda doğulan, peştun əsilli Axund 1996-2001-ci illərdə də Mədənçilik və sənaye naziri işləyib.

**23. Su və Enerji naziri Molla Əbdüllətif Mansur:**

1968-ci ioldə Paktiya vilayətində doğulub. Peştun əsilli Mansur, ABŞ-a qarşı ciddi müqavimət göstərib. "Taliban"ın hakimiyyəti zamanı Kənd Təsərrüfatı naziri, Nanqarhar valisi kimi vəzifələri tutub.

**24. Ali təhsil naziri Əbdülbaki Hakkani:**

Hakkani 1961-ci ildə Nanqarhar vilayətində doğulub. "Taliban"ın iqtidarda olduğu dönəmdə Host və Paktika vilayətlərinin valisi, İnformasiya və Mədəniyyət nazirinin müavini kimi vəzifələrdə işləyib.

O, həm də Xarici İşlər Nazirliyində fərqli vəzifələrdə olub. Hakkani 2003, 2009 və 2012-ci illərdə Avropa Birliyi tərəfindən müxtəlif maliyyə sanksiyalarına məruz qalıb.

**25. Mühacirlər naziri Xəlilürrəhman Hakkani:**

1966-cı ildə Paktiya vilayətində doğulan Hakkani "Taliban"ın məşhur komandanı Cəlaləddin Hakkaninin qardaşıdır. O da Diyobəd mədrəsələrində təhsil alıb. Sovet İttifaqına, sonra da ABŞ-a qarşı vuruşub. ABŞ Hakkanini 2011-ci ildə "terrorçu" elan edərək başına 5 milyon dollar mükafat qoyub.

**26. Kəşfiyyat İdarəsinin rəisi Əbdülhəq Vasik:**

1971-ci ildə doğulan Vasik də Quantanamo məhkumu olub (12 il). "Taliban" iqtidarı dönəmində Kəşfiyyat nazirinin müavini işləyən Vasikin Əfqanıstandakı "Əl Qaidə" şəbəkəsi ilə yaxın münasibətləri olub.

**27. Mərkəzi Bankın rəhbəri Hacı Məhəmməd İdris:**

Cevzcan vilayətinin Havaca Dukoh rayonunda doğulan İdris uzun illər "Taliban"ın Maliyyə Komissiyasının sədri işləyib. Özbək əsilli İdrisin "Taliban"da maliyyə məsələsində əsas füqur olduğu deyilir.

**28. Baş Qərargah rəisi Kari Fasihuddin:**

Son zamanlar "Taliban"ın dünyada daha çox müzakirə edilməsinə səbəb verən məşhur komandir Kari Fasihuddin əslən tacikdir. O, Bədəxşan vilayətinin Varduc rayonunda doğulub. Ailəsi çox dindar olub, bölgədə sayılıb-seçilib. Fasihuddinin atası Mövləvi Seyfəddin, yerli xalqın imamlığını edərmiş. Yüksək dini təhsil alan Fasihuddin 2001-ci ildə "Taliban"a qoşulub. Onun Baş Qərargah rəisi təyin olunmasında, Pəncşir vilayətini cəmi bir həftəyə təslim etməsi böyük rol oynayıb.

Belə-belə işlər, dünənədək terrorçu təşkilat adlandırılan "Taliban" artıq hakimiyyətdədir. Ölkəni idarə edən mollalar həm də dünya birliyi ilə əlaqələr quracaqlar, onları qəbul etməyən Qərb liderləri ilə eyni masada əyləşəcəklər. Gözləyək görək sonu nə olacaq, hər halda dünya riyakar dünyadır.

*✍ Vüsal Tağıbəyli*



■ **Sentyabrın 6-da Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Məlikzadə Məmmədağa Zakir oğlunun həmin gün odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Gəncə hərbi prokurorluğuna məlumat daxil olub.**

Baş Prokurorluğun Mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb, iş üzrə şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və zəruri istintaq hərəkətləri həyata keçirilib. Cinayət işi Baş Prokurorluğun rəhbərliyi tərəfindən xüsusi nəzarətə götürülməklə, istintaqın davam etdirilməsi Hərbi Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.



■ **ABŞ-ın 45-ci prezidenti, respublikaçı Donald Tramp 2024-cü ildə keçiriləcək prezident seçkilərində iştirak etməyi planlaşdırır. Hafta.az-ın məlumatına görə, bu barədə "Politico" qəzeti mənbələrə istinadən xəbər verir.**

Məlumata əsasən, son vaxtlar D.Tramp xəbərlər gündəmində daha tez-tez yer alır. Bundan əlavə, onun qərargahı Ağ Evin hazırkı rəhbəri Cozef Bayden haqqında mətbuatda getdikcə daha çox tənqidi məlumatlar yerləşdirir. Mənbələrin sözlərinə görə, koronavirus statistikasının pisləşməsi səbəbindən C.Baydenin reytinqinin aşağı düşməsindən sonra D.Trampda siyasi ambisiyalar yenidən oyanıb: "Əslində o hələ qərar verməyib, amma hamımız onun iştirak edəcəyini düşünürük".



■ 14 iyul 2021-ci ildə Azərbaycan hərbçiləri tərəfindən Laçın rayonu ərazisində saxlanılmış Ermənistan Respublikasının vətəndaşları - Gümrü şəhər sakini, hərbi qulluqçu, 27.10.1981-ci il təvəllüdlü Nalbandyan Artur Hayki və Gorus rayon sakini, hərbi hissədə sürücü işləyən mülki şəxs 07.08.1963-cü il təvəllüdlü Torozyan Aramais Qrati Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatına uyğun olaraq azad edilərək Rusiya sülhməramlılarının vasitəçiliyi ilə 7 sentyabr 2021-ci ildə Ermənistana təhvil verilib.



■ **Azərbaycan idmanının inkişafı üçün əlimdən gələni edəcəyəm. Bunu yeni təyin edilən gənclər və idman naziri Fərid Qayıbov bu gün nazirliyin kollektivinə təqdim edilərkən deyib.**

Yeni nazir qeyd edib ki, qarşımıza qoyulan vəzifələri yerinə yetirməli, çətinlikləri aradan qaldırmalıyıq: "Azərbaycanda idman sahəsində uğurlu nəticələr var. Mən bu nəticələrlə kifayətlənməyəcəyəm, Azərbaycan idmanının inkişafı üçün əlimdən gələni edəcəyəm". F.Qayıbov ona göstərilən etimada görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib: "Cənab Prezident İlham Əliyev mənə çox böyük etimad göstərib. Bu çox məsuliyyətli bir vəzifədir. İnanıram ki, bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacaracağam".



■ **İşğaldan azad olunmuş ərazilərimizdə Bərgüşad və Həkəri çayları üzərində yeni su anbarlarının tikilməsi ilə bağlı təkliflər var. Bunu Trend-ə açıqlamasında ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov deyib.**

Nazir müavini bildirib ki, həmin ərazilərdə 13 çay və 9 su anbarı var: "Su anbarlarından bir neçəsinin istismarı, təmir və bərpa işlərinin aparılması ilə bağlı artıq layihələr işlənir və həyata keçirilir. Köndələnçay-1, Köndələnçay-2, Aşağı Köndələnçay və Suqovuşan su anbarlarının istismarı ilə bağlı bir sıra təmir işləri və tədbirlər həyata keçirilir. Bütün bu tədbirlər həmin ərazilərin suvarılma suyuna tələbatının ödənilməsində, həm də işğaldan azad olunmuş ərazilərə gözlənilən böyük qayıdış müddətində salınacaq şəhərlərin əhalisinin içməli su təminatında böyük rol oynayacaq".

■ **FİFA bəzi İngiltərə klublarının braziliyalı futbolçuları meydana buraxmasına qadağa qoyub. Bu qadağa 5 gün müddətinə şamil olunacaq. Belə cəza Braziliya Futbol Konfederasiyasının xahişi ilə gerçəkləşib.**

Buna səbəb Premyer Liqa klublarının oyunçularını yığmaya buraxmaqdan imtinası səbəb olub. Cəza "Liverpul", "Mançester Siti", "Mançester Yunayted", "Çelsi" və "Lids"lə bağlıdır. Bu klublar 8 oyunçunun xidmətindən yararlana bilməyəcək. Bu baş versə, klublara daha ağır sanksiyalar tətbiq ediləcək. Söhbət milliyə buraxılmayan oyunçulardan gedir. Bunlar Qabriel Jezuş, Ederson ("Mançester Siti"), Fabinyo, Alisson, Roberto Firmino ("Liverpul"), Rafinya Dias ("Lids"), Tyaqo Silva ("Çelsi") və Freddir ("Mançester Yunayted").

# Bizi intihar, depressiya, aqressiya dalğası gözləyir

## Müsahib



**Azad İsazadə,**
həkim-psixoterapevt, hərbi-psixoloq

***44** günlük müharibə torpaqlarımızın işğaldan azad olunması, millətin ruhunun dirilməsi ilə tarixə düşdü. Lakin müharibələr qansız-qadasız olmur. Azərbaycan da öz haqqı uğrunda apardığı savaşda 3000 şəhid verdi, minlərlə qazimiz müharibənin yarasını sinəsində, beynində, bir travma kimi daşıyır. Müharibədən sonra onun dəhşətini öz bədənində gəzdirən bir çox qazilərimizin intihar etdiyini, intihara cəhdlərin olduğunu ürək ağrısı və təəssüf hissi ilə müşahidə edirik. Bu mənada post-müharibə dövrü qazilərimizin psixoloji reablitasiyası, sosial-ictimai həyata düzgün adaptasiya olunması istiqamətində bütövlükdə cəmiyyətin görməli olduğu işlər çoxdur. Bu gün çoxlarımızda belə bir sual yaranır. Nədir qazilərimizi bu həddə çatdıran səbəb? Bu barədə hafta.az-a müsahibə verən həkim-psixoterapevt, hərbi-psixoloq Azad İsazadə maraqlı məqamlara diqqət çəkib.***

***- Müharibə və ondan sonra qazilərimizdə, eləcə də sərhəd, təmas bölgələrində yaşayan əhalidə hansı psixoloji travmaların olduğunu müşahidə etdiniz?***

- Biz noyabr ayından bu günə qədər cəbhəyə yaxın kəndlərdə zərərçəkmiş uşaqlara, ailələrə, qadınlara psixoloji yardım göstərirdik. O cümlədən də qazilərə. O cümlədən raketlərlə dağıdılan Gəncədə, Bərdədə olduq. 28-30 nəfərə yaxın psixolq-həkimlərlə 7-8 ay kəndbəkənd gəzib əhali ilə işlədik. Avqustun 27-si qayıtmışıq. Və ən çətin iş şəhid ailələr ilə işləmək idi. Biz praktiki olaraq psixologiyada rast gəlinən bütün pozuntularla rastlaşdıq. O cümlədən mən bəzən psixiatr kimi müharibənin nəticəsində ruhi pozuntularla bağlı dərməndan da istifadə etməli oldum. Ürəkgetmələr, depressiya, aqressiya, ailə zorakılığı çoxalmışdı. Kantuziya, beyin travması almış insan evə gəlir, uşaqların hay-küyünü eşidir əsəbləşir. Özü deyir ki, hay-küydə otura bilmir, özündən asılı olmayaraq uşaqları döyür. O bundan xilas olmaq istəyir. Biz bu müddət ərzində özünə suiqəsd eliyənləri də gördük. Problem çoxdur və bu iş davam olunacaq.

***- Şəhid ailələrində hansı psixoloji pozuntulara rast gəldiniz. Onları psixoloji olaraq sıxan nədir?***

- Təsəvvür edin, bir yaşlı kişi gəlib, kastilnəndir, bir ayağı yoxdur. Birinci övladını I Qarabağ müharibəsində itirib, 2 ci övladı bu müharibədə şəhid olub, 3-cü ən kiçiyi hal-hazırda ordudadır, 1 dəfə kantuziya alıb və qulluğu davam edir, MAXE-dir. Siz təsəvvür edirsiz... Ya da bir kənddə əkiz oğullar eyni gündə şəhid olub. Lövhə asılıb, doğulduğu, şəhid olduğu günlər gün ikisində eynidir. Mənim təcrübəmə baxmayaraq bəzən görürdüm ki, dözə bilmirəm. Çətin idi. Sözsüz ki, psixoloqlar da bir-birinə superviziya adlı bir metodla kömək etməyə çalışırlar...

Biz Bakıda az işləmişik. Daha çox kəndlərdə, rayonlarda olmuşuq. Deyə bilərəm ki, kəndlərdə şəhid ailələrinə münasibət çox yaxşıdır. Biz orda Şəhid ailələrinə hörməti hiss edirik. Onlar özlərini cəmiyyətə lazımlı hiss edirlər. Bir xanım ağlaya-ağlaya mənə deyirdi ki, əziyyətlə müəllimlik edib, həyatində əkib-biçib, uşaqlarını böyüdüb. Deyir ki, oğlu ona demişdi ki, ana elə gün olacaq ki, sən cəmiyyətin ən hörmətli adamı olacaqsan və göz yaşını axıdır... Bu gün qazilərimizə sosial-maddi və psixoloji yardım lazımdır. Qeydiyyata alınan qazilərimiz çoxdur-11 min. O qazilərin bəziləri orta məktəb bitirib kənd uşağıdır, ali savadları yoxdur. İş problemi, sənət probleləri var. Həmin o uşaqlar döyüşdə yaralanıb qospitala düşəndə, heç yatmayıblar orda. Deyirdilər ki, mənim dostlarım döyüşür, mən hara yatıram. İndi müharibə qurtarıb, amma əlində heç bir sənədi yoxdur. 3 dənə yarası var, kontuziyası var, bədəndə qəlpəsi var. Amma kağızı yoxdur. O sənədləri bərpa eləmək mümkündür, amma kimsə bu işlə məşğul olmalıdır. Bu olmayanda qazidə əsəb pozuntusu, yuxu pozuntusu baş verir. Çoxları da özünə intihar edir. Tutaq ki, Amerika ordusu 20 il Əfqanıstanda döyüşlərdə olub. Onların veteranlarının arasında 6-7 min, bəlkə də daha çox sui-qəsdlər olub. Biz başa düşürük ki, orda psixo-sosial reablitasiya da var, maddi təminat da var. Vyetnam müharibəsindən sonra da həmin proses getdi. Bu o demək deyil ki, mən əsgərlərimizin sui-qəsd hallarına bəraət qazandırıram, xeyir. Bu o deməkdir ki, biz bu məsələ ilə daha ciddi məşğul olmalıyıq. Çünki bu dalğa bizi də gözləyir. İkincisi də bu gün nə siz, nə mən deyə bilmərik ki, üçüncü müharibə olmayacaq. Bizi intiharların, depressiyaların, aqressiyaların dalğaları gözləyir.

Ümumiyyətlə, post-dramatik sindrom birdən-birə formalaşmır. Əsgər travmanı alırsa, post-dramatik travmanın formalaşmasına azı yarım il vaxt lazımdır. Deməli, biz indi o dalğanın içinə keçməyə başlayırıq. Çünki, yara əvvəl-əvvəl isti idi. Yara-travma isti olanda onu bəzən hiss eləmirik. Qazilərə də təzə-təzə diqqət daha çox olur, sonra yavaş-yavaş unudulur, bu qalır öz problemi ilə təkbətək. Travmatik sindrom formalaşır. Biz bu mənada cəmiyyət, dövlət olaraq onları tək qoymamalıyıq. Onları hansısa sosial proqramlara, kurslara cəlb etməliyik. Bununla yanaşı da peşəkar psixoloji yardım edilməlidir.

***- Qazilərin, şəhid ailəlrinin,müharibə qurbanlarnın post-müharibə dövründə reablitasiyasında hansı layihə üzrə işləyirdiz?***

- Biz layihə ilə işləmirdik. Layihələri mülki şəxslərə tapmaq daha rahatdır, nəinki keçmiş veteranlara. Beynəlxalq təşkilatlar keçmiş döyüşçülərə layihə vermir. Çünki orda deyilir ki, siz onları bərpa eliyəcəksiz və bunlar da gedib təzədən döyüşəcək.

Bir qrup psixoloq olaraq sadəcə elan eləmişik ki, biz hər bir qazini heç bir ödəniş etmədən qəbul etməyə hazırıq. Hesab edirik ki, qazi öz borcunu qanı ilə əvvəlcədən ödəyib. Ona görə də biz sadəcə olaraq onları rayonlara gedib qəbul edirik. Amma sonra o bura gəlməlidir. Bakıdakı qaziləri qəbul edə bilərik. Amma nəzərə almalıyıq ki, kəndlərdə olan qazilərin bəzən rayon mərkəzinə getməyə də imkanı olmur.

> *Nəzərə almalıyıq ki, kəndlərdə olan qazilərin bəzən rayon mərkəzinə getməyə də imkanı olmur*

***- Gözəl təşəbbüs olardı ki, ayrı-ayrı imkanlı şəxslər, təşkilatlar bu işdə sizə dəstək olsun və səyyar psixoloq qrupları formlaşmaqla kəndlərdə işləsinlər.***

- Dediyim kimi, müharibə ərəfəsində 7 ay biz kəndbəkənd gəzdik. Amma biz orda da qazilərlə 1,2-dəfə görüşə bilərdik. Növbəti dəfə olmur. Biz o yerlərdə daimi işin təşkili üzrə işləməliyik. Başa düşməliyik ki, ermənilər heç yerə çıxıb gedəsi deyillər. Pisdi, yaxşıdı qonşumuzdur və onlar bu müharibəni hansısa formalarda davam edəcəklər. Ona görə də mən hesab edirəm ki, indidən ali tədris məktəblərində psixoloji travma ilə işləyən peşəkarları hazırlamalıyıq. Məktəb psixoloqları institutu bitirəndə travma ilə necə işləməyi bilməlidir. Sabah azad olunmuş torpaqlarda məktəblər açılanda ora gedən məktəb psixoloqu çətin anlarda heç olmasa ilkin yardımı gösətərə bilmək üçün öyrədilməlidir. Deməli, regionlarda Psixoterapiya Mərkəzləri yaranmalıdır. Çünki bu gün bizim psixoloji travma ilə işləyən peşəkarlar azdır. Düzdür, son 8 ay ərzində yeni psixoloq komandası formalaşdı. Bəlkə də biznən paralel də kimlərsə bu işlə məşğul oldu. Amma biz başa düşməliyik ki, 11 min qazi, müharibədən zərərçəkmiş nə qədər mülki əhalimiz var və bunun qarşısında psixoloqların sayı azdır.

***- Azad müəllim, siz dediyiniz o Tədris Mərkəzləri ilə bağlı hələ müharibədən əvvəl də danışırdız. Niyə formalaşmır?***

- Belə Mərkəzlər ancaq kommersiya xarakteri ilə formalaşır. Bu gün onlar daha çox QHT-lər kimi fəaliyyət göstərirlər. Məsələn, müəllimin təhsil nazirliyi, həkimin səhiyyə nazirliyi var və sair. Amma psixoloqları koordinasiya, idarə edən qurum yoxdur. Bu bir tərəfdən yaxşıdır. Formalizmdən, məmurdan azadıq. O biri tərəfdən də psixoloqlar üçün eyni qaydalar, proqramlar yoxdur. Kim istəyir özünü psixoloq elan edir, kim istəyir özünü psixoanalitik elan edir. Amma o da normal bir prosesdir. Məktəb psixologiyası təhsilə aiddir. Reklam, bialoji, zoo, klinik psixologiya, hərbi, psixologiya, yəni istiqamətləri çoxdur. 80-ci illərin axırına yaxın Azərbaycanda psixologiya ixtisası yox idi. Yəqin ki bu sahədə də dəyişiklik olar.

***- Azərbaycan cəmiyyətində psixoloqa yanaşma bir qədər fərqlidir, qəribədir. Psixoloq azılığı ona tələbatın az olması ilə bağlı meydana çıxa bilərmi?***

- Yox. Düzdür qəribə idi. Mən işin içindəyəm. Gələn yox idi. Deyirdilər ki, mən psix deyiləm ki, psixoloqa gedim. Mən bu sözü 20-25 il öncə tez-tez eşidirdim. İndi gedirlər. əsasən də uşaq psixoloqunun yanına. Çünki uşaq gözünün qabağındadır və görür ki, davranışı, danışmağı, oxumağı, öyrənməyi nəsə fərqlidir. Özümüzə hələ qıymırıq, amma uşaqlara görə gəlirik.

***- Psixoloqa müracət edilirsə, demək psixologiyamızda nə dəyişib?***

- Ümumiyyətlə, Şərqdə psixoloqların yanına az gedərdilər. Çünki Şərqdə, o cümlədən də Azərbaycanda ailə anlayışı daha genişdir. Yəni əmi, dayı, bibi, xala, onların övladları və sairə. Və bizdə ailənin hər bir probleminin özünün öz "ekspertləri" var. Eşq-məhəbbət məsələlərini xalaqızı ilə həll edirlər, pul problemi ilə bağlı kiçik əmi, dayı məşğul olur, kimisə döymək lazımdırsa əmiuşaqılar işə qarışır. Böyük bir ailədə məsləhət üçün ağsaqqala-babaya, ataya müraciət olunur.

***- Bir sözlə, psixoloqa ehtiyac qalmır.***

- Ailədən-ailəyə fərq var. Demirəm ki, bütün ailələr idealdır. Ailənin içində təfəkkür necədirsə, onun ağsaqqalı da elə məsləhət verir. İndi urbanizasiya prosesində böyük ailələr dağılıb. Tutaq ki, mən Yasamalda, dayım Əhmədlidə, kimsə Sulutəpədə qalır, ünsiyyət azalıb. Amma onların məsləhətə ehtiyacı var. İndi başlayıblar psixoloqa müraciət etməyə və bir də başa düşürlər ki, peşəkar məsləhətinə daha çox ehtiyac var.

***- Bəzən bu prosesə ailə dəyərlərinin itməsi kimi yanaşırlar. Bu gün dediyiniz kimi, əmiyə, dayıya müraciət edilməməsi, ünsiyyətin azalması yaxşıdır, yoxsa pis?***

- Elə ailələr var ki, orda ağsaqqalın məsləhəti olamasa yaxşıdır. Ümumilikdə isə, bu təbii bir prosesdir və onun mənfi tərəfləri də var, müsbət tərəfləri də. Bu bir norma kimi qəbul olunmalıdır.

***- Azərbaycanlı psixologiyasında irəliyə doğru dəyişən nədir, geriyə gedən nədir?***

- İrəliyə gedən yaxşı cəhət odur ki, biz mənfi dərdin üzərində dayanmırıq. Həyat davam edir. Yasa da düşündə 40 verib, il verib həyatımıza davam edirik. Dərd içində qalmırıq. Bu barədə biz bədnam qonşularımızdan irəlidəyik. Onlar 20-ci əsrin 15-ci ildində özlərinə uydurduğu dərdin üstündə qalıblar. Dediyim həmin yaxşı cəhətin ucundakı mənfimiz odur ki, biz dərd olmayanda unuduruq, bu da pisdir. Yaxşıdır, ona görə ki, psixoloji travma almırıq. Pisdir ona görə ki, unuduruq. Biz unutqanlıqla mübarizə aparmalıyıq. Pisi dərd eləmiyək amma yadımızda saxlayaq, çünki bu, bizim başımıza yenə də gələ bilər.

***✍ Tahirə***

# Səma Muğanna - yeni günəş

*(Ağazadə Səma Elbrus qızı haqqında)*

***Salam olsun, dəyərli oxucum! Bu görüşü bizə ərməğan etdiyinə görə Böyük Alaha şükürlər olsun! Sizlərlə yenidən həmsöhbət olmaq çox xoşdur! Bu dəfə söhbətimizin mövzusu əlinə yenicə qələm almasına baxmayaraq, artıq kifayət qədər uğura imza atmış gənc qələmdar barəsində olacaq. Haqqında söhbət açacağımız gənc yazar qısa müddət ərzində öz imzasını tanıtmağı bacarmış, ədəbi cameədə sözünü deməyə başlamışdır. Söhbətə başlamazdan əvvəl onu qeyd etmək istəyirəm ki, bu dəfə sizinlə bir az hüznlü, gərgin, amma bir o qədər də romantika dolu dünyaya səyahət edəcəyik.***





Bu dünyanın balaca fidanı xəzan olan yarpaqların arasında öz qələmini tapmış və ondan bərk-bərk yapışıb dikələrək, bu qələmin gücünə bələd olduğundan ona söykənib var gücü ilə, səsi gəldikcə, sözü yetdikcə; "...ey kor olmuş dünya, mən də varam" - deyə hayqırmaqdadır. O qələm onu çox fırtınalarla qarşılaşdırmış, o kiçik, məsum ürəyində od qalamışdı. Bu odun qor götürdüyü ocaq bəşəriyyətin söz məbədinin müqədəsliyinə müqədəslik qatan piraninin piridir. Bu od hərdən sönsə də, hər dəfəsində yenidən daha güclü alovlanmışdır. Alovlanmış və daha da gurlanaraq sönməmiş, əksinə parlaqlığını artırmışdır. Bu od o ocaqdan rişələnib ki, çoxlarımız qiyabi də olsa bu barədə məlumatlıyıq. Bu od o ocaqda, o məbəddə alovlanır ki, onun nə vaxtsa sönməsini heç birimiz istəmərik. Əksinə bu yazını oxuyandan sonra çoxunuz mənimlə razılaşacaqsınız ki, hamımız bu ocağın qorunu, alovunu mühafizə etməli, onu qorumalı daha da gur alovlanmasına, zülmət dünyamızı işıqlandırmasına, soyuq dünyamızı isitməsinə kömək olmalıyıq. İndi sizi bu müqəddəs məbədin ocaqdarı ilə tanış etməyin vaxtı çatmışdır. Bu müqəddəs məbədin indi-indi alovlanmağa başlayan qoru, bu qoca çinarın yeni pöhrəsi, fidan balamız, gənc yazar, dahi söz ustadı İsa Muğanna ocağının, irsinin varisi, qoruyucusu, daşıyıcısı Səma Muğannadır.

**Qısa Arayış:**

Səma Muğannna (Ağazadə Səma Elbrus qızı) 2006-cı il martın 2-də Bakıda ziyalı ailəsində dünyaya gəlib. Babası "İstiqlal" ordenli Xalq yazıçısı İsa Muğanna kiçik yaşlarından Səmanın tərbiyəsi ilə məşğul olmuş, onda ədəbiyyata maraq oyatmışdır. Hal-hazırda Səma 189-190 saylı orta məktəbin 10-cu sinfində təhsil alır, 3 kitab müəllifidir, "Yazarlar" jurnalının redaksiya heyətinin üzvüdür, "Ulduz" jurnalında, "Ədəbiyyat və "Kırımın səsi" qəzetlərində, eyni zamanda müxtəlif saytlarda əsərləri işıq üzü görmüşdür. "Ziyadar" Mükafatı laureatıdır.

Səma Muğanna ilə mənim tanışlığım "Adam və Papatyanın Tanrıyla görüşdüyü gün" kitabı ilə olub. Kitab adı ilə diqqətimi çəksə də oxuduqdan sonra bu gənc müəllifin söz dünyası, düşüncələri fikrimi məşğul etməyə başladı. Daha sonra "Göyərçinin qəribə sevgi hekayəsi", "Lal şəhərim" və digər kiçik həcimli yazıları ilə tanış olduqca hər şey mənə məlum oldu. Söz dünyası, bədii ədəbiyyat öz yeni tacidarını qarşılamağa hazır olmalıdır. Söz səltənətinin yeni sultanının tacının parıltısı artıq ədəbiyyat üfiqlərində görünməkdə, atının ayaq səsləri isə eşidilməkdədir.

Əgər bir az da dərinə gedib, Səmanı daha yaxından tanımağa çalışsaq, bu körpə fidan bala qələminin varlığına sarılaraq ayaqda qalmağı bacarıb. Kiçik dünyasında rəngarəng göy qurşağını kiçik ev edib, o evin də, küçənin də ən şirin nəğməsi olub. Bu nəğmə böyüdükcə səsi ətrafı da ovsunlamış və ovsunlamaqdadır.

Səsdən söz düşmüşkən, sözün əsl mənasında Səma həmdə məlahətli səsə və özünəməxsus ifa tərzinə malik qiraətçi kimi də özünü uğurla sınayır.

Bütün bu sadaladıqlarımızın hamısı Səmada ilkin mərhələdə, işartı formasındadır. Ancaq, ondakı əzim və bir də söykəndiyi soy-kök onu deməyə əsas verir ki, biz çox parlaq bir gələcəyi olan söz adamı, yazarla müasirik. Səmanın yaradıcılıq dünyasına səyahət etdikcə qəlbləri riqqətə gətirən səhnələrlə tanış oluruq. Qələm sahibinə rəğbətimiz artır. Səma həyat eşqini, duyğularını, yaşadıqlarını sadəcə qələmə almır. O bəlkə də şəxsən onun özünə aid olanları böyük ustalıqla ümumiləşdirməyi bacarır. Öz yaşıdlarının, bəzən (çox vaxt) isə hətta yaş və digər stereotipik baryerləri aşaraq bütün insanlığın, cəmiyyətin problemlərini uğurla qabarıq şəkildə təqdim edir. O bütün varlığıyla sarıldığı qələmini barmaq uclarıyla izləyərək yazır. O qələminin sözünü dinləyir. Səmanın qələmindən çıxmış bir az mistik, sevgi dolu hekayətlər oxucunu ovsunlayır. Qələminin sehrini izləyən oxucusu bu yalan, fani dünyadan ayrılıb, onun sevgi dolu dünyasına səyahət edir. Səmanın qeyri-adi, sehirli söz dünyasına düşmüş oxucu həyata tamam başqa gözlə baxmağa başlayır. O dünyadan bu dünyaya yeni əhval-ruhiyyədə qayıdır.

Səmanın söz aləmində uğurlar qazanmasında rol oynayan ilk olaraq babası İsa Muğanna və ailəsi olub. Bu körpə fidan bala dünyaya göz açdığı ocaqda ədəbiyyat qoxusunu duymuş və qələmi əlinə almışdır. Təbii ki, onun yanında dəstəkçiləri də olmuşdur və bu gün də var. Günəş olmadığı zaman Ay Yeri işıqsız qoymadığı kimi, İsa Muğanna yoxluğunda Səma Muğannanın da muğannasevərləri sözsüz qoymayacağına əminik.

Son olaraq Səmaya onu demək istəyirəm ki, əzizim Səma başlanğıc mükəmməldir! "Sükanı belə saxla!" Bax, beləcə davam et! Daim öz üzərində işlə! Biz ədəbiyyat üfiqlərində sənin timsalında yeni bir günəşin doğduğuna inanırıq. Sənin boynuna düşən bizim yanılmadığımızı sübut etməkdir. Bu keşməkeşli, çətin ancaq, şərəfli yolda uğurların bol olsun!

Sona qədər həmsöhbət oduğunuz üçün təşəkkür edirəm. Böyük Allahın yardımı və izni ilə yenidən görüşənədək! Allah amanında.

***✍ Zaur Ustac,***
*"Yazarlar" jurnalının baş redaktoru, şair-publisist*

# Ət məhsulları və yumurtanın qiyməti qalxıb

**Son günlər marketlərdə qiymət artımı müşahidə olunur. Pandemiya dövründə nəzərə çarpacaq dərəcədə hiss edilən bahalaşma əhali arasında haqlı narazılığa səbəb olub. Elə buna görə də, məsələ sosial şəbəkəklərdə müzakirə obyektinə çevrilib. Nəzərinizə çatdıraq ki, bu ilin əvvəlində də bəzi qida məhsullarının bahalaşması barədə xəbər vermişdik.**



Bəs görəsən qiyməti hər keçən gün daha da qiymətlənən qida məhsullarının bu qədər bahalaşmasına səbəblər nələrdir? Bahalaşma daha çox hansı qida məhsullarında özünü biruzə verir? Hafta.az-ın əməkdaşı yaranmış suallara cavab tapmaq üçün ilk olaraq ölkənin iri marketlər şəbəkəsindən biri olan "Araz Market"lə əlaqə saxlayıb.

■ **Araz marketlər şəbəkəsinin mətbuat xidmətinin əməkdaşı Nuranə Babayeva söylədi ki, son günlər marketdə ət məhsulları və yumurtanın qiymətində artım müşahidə edilir. Səbəb isə damazlıq quşların kütləvi şəkildə tələf olmasıdır:** "Təzə ət və ət məhsullarında qiymət artımı müşahidə olunur. Dünya bazarında isə quş ətinin qiymətində ciddi artım var. Yumurtanın qiyməti də 2 ay əvvəl ilə müqayisədə bahalaşıb. Süd və süd məhsullarında isə qiymətlər hələki sabitdir".

Bundan başqa market rəsmisi qiymət artımının tədarükçülərdən bilavasitə asılı olduğunu da vurğuladı: ""Araz" supermarketlər şəbəkəsi olaraq 10 ildir ki, müştərilərimizə ən münasib qiymətlərlə məhsulları təklif edirik. Biz qiymətlərimizi lokal olaraq bazar qiymətlərinə uyğunlaşdırmaqla tənzimləyirik. Ərazi üzrə mütəmadi monitorinq aparılır və həmin qiymətlər bazar qiymətinə uyğunlaşdırılır.

Qiymətlərin dəyişimi daha çox tədarükçülərdən aslı olur. Onlar alış qiymətlərini dəyişdiyi halda biz də rəflərdəki qiymətləri dəyişməli oluruq. İlk olaraq, həmin qiymət artımı ilə bağlı məlumatı monitorinq mərkəzimizə göndəririk. Beləcə gündəlik qiymət araşdırması aparılır. Araz supermarketlər şəbəkəsində satılan məhsulların qiyməti ən ucuz qiymət indeksi ilə eyniləşdirilir".

> *Hazırda qiymət artımına təsir edən ən əsas səbəb inhisarçılıq anlayışıdır*

■ **İqtisadçı ekspert Fuad İbrahimov isə bahalaşmanın təbii hal olduğunu və ilin əvvəlindən bəri bütün dünyada baş verdiyini bildirdi:**

"Dünya üzərində qida məhsullarının qiymətində mərhələli şəkildə artım müşahidə edilir. BMT-in ərzaq təhlükəsizliyi ilə bağlı verilən hesabatında bu haqda məlumat verilib. Ölkəmizdə qiymət artımı vətəndaşların büdcəsinə kifayət qədər təsir edir. Bir çox ərzaq məhsulları artıq ilin əvvəlindən etibarən bahalaşıb. Bitki yağlarını burada xüsusi vurğulamaq olar. Şübhəsiz ki buna ilk təsir edən amil bazarlardakı rəqabətsiz mühitdir. Onu da nəzərə almaq lazımdır ki ölkəmizdə son dövrdə ticarətdə endirim siyasəti kampaniyalar üzərində qurulub. Bu hala isə ən çox iri ticarət mərkəzlərində rast gəlinir. Şəhər kənarı ərazilərdə isə ƏDV ödəyicisi olmayan, kiçik ticarət məntəqələrindən hər hansı əlverişli məhsul əldə etmək mümkündür. Hazırda qiymət artımına təsir edən ən əsas səbəb inhisarçılıq anlayışıdır. Fikrimcə bazara kəndlərdən məhsulların girişinə sərbəstlik yaratmaq lazımdır. İdxal amili ilə də qiymətlərə təsir etmək mümkündür".

***✍ Banu***

# Yaşamağa dəyər

***Ömür insana bir dəfə verilir,onu elə yaşamaq lazımdır ki, ötən illər üçün utanmayasan.***

M.Ostrovski

Müəllimə kimi əvvəl Ucar rayonunda,sonra Göyçayda işləməyə başlamışam.1959-cu ildə ilk dəfə 10-cu sinifə daxil olanda 17 yaşında idim. Şagirdlərin əksəriyyəti məndən böyük idilər. Çünki həmin vaxt qaydalara əsasən uşaqlar məktəbə 8 yaşında gedirdilər.

Salam verəndə həyəcanımı güclə boğurdum. Bir dəfə uşaqlar məndən - "Müəllimə "Təbrik edirəm" sözü rus dilində necə deyilir",-deyə soruşdular.

**Dedim:** "Pozdravlyayu".

**Başqası soruşdu:** bəs "Mübarək" "Pozdravlyayu".

**Üçüncüsü sorusdu:** "Gözün aydın". Duruxdum, sonra yenə dedim: "Pozdravlyayu". Dedilər "hamısı eyni oldu ki"... Bununlavf uşaqların ilk "imtahanından" keçdim.

Uşaqlar həmişə mənə hörmətlə yanaşardılar. Bir dəfə 8 Martda sinşfin yarısı mənə hədiyyə gətirmişdi. Onlara tənəffüsə çıxanda dedim: "Bu hədiyyələri valideynləriniz qazanıb, nə vaxtsa məktəbi bitirib işləyərsiniz, məni yada salarsınız, onda nə versəniz, qəbul edərəm. İndi isə bu hədiyyələri aparın verin analarınıza,nənələrinizə və mənim də adımdan onları təbrik edin".

İllər bir-birini əvəz etdi. İndi təqaüdə çıxmışam. Lakin şagirdlərim məni yad edirlər: İsgəndərov Pənah, Adıgözəlli Sahib, Babayev Rövşən, Qədirli Mətanət...

Bir gün Kərimova Qumru gəlib nəvəmə 100 manat verəndə "Qumru, nə edirsən" deyə soruşdum. O isə cavabında "Müəllimə, demişdiniz ki, özünüz qazananda hədiyyənizi qəbul edəcəm, mən vəkiləm özüm qazanmışam" dedi. Bir gün də ad günümdə Rafiq Manafov Norveçdən məni təbrik etdi. Sorusdum ki, vəziyyətin necədir? Dedi, təhsilini davam etdirir: "İndi əlimdə aş bişirirəm. Norveçliləri qonaq çağırmışam. İstəyirəm Azərbaycan aşının dadını bilsinlər,həm də təriflədikləri ermənilərin iç üzünü onlara tanıdım".

Keçən il yayda Bakıdan zəng gəldi:

***- Müəllimə, Orucov Vahiddir, yadınızdayammı? Sizə gəlmək istəyirik.***

Səhəri gün gəlib məni o vaxt çalışdığım 3 nömrəli beynəlmiləl orta məktəbə apardılar. Fikirləşdim, indi yaydır, tətil vaxtıdır. Görəsən məktəbə niyə gedirik? Məktəbin həyətinə daxil olanda çoxlu insanları gördüm. Onlar səs-səsə verib - "Lyudmila Axmedovna"deyərək məni əhatəyə aldılar. Bunlar mənim yetirmələrim idi: Soltan, Murad həkim, müğənni Ağamusa,sınıqçı Zabil... başqaları.

Hamısı 1973-cü ilin məzunlarıdır. Birlikdə getdik öz sinif otağımıza. Hərə öz yerində oturdu. Zarafat edib, deyib-güldük, keçmiş xatirələri yada saldıq. Küncdə oturanlar, "2" alanlar, dərsdən qaçanlar və b. Sonra Şəhidlər Xiyabanına getdik. Vətənimiz, torpaqlarımız uğrunda canlarını qurban vermiş oğullarımızı yad etdik. Oradan da bizim üçün hazırlanmış məclisə yollandıq. Keçmişin xoş xatirələrin xatırladıq. Həmin gün sevincimin həddi-hüdudu yox idi. Deməli çəkdiyim əziyyətlərə dəyərmiş.

Əgər fayda verə bilirsənsə vallah yaşamağa dəyər, Səni unutmurlarsa vallah yaşamağa dəyər.

***✍ Lyudmila Nəbiyeva,***
*təqaüdçü müəllim*
*Göyçay rayonu*

# Konservləşdirilmiş məhsullar

## Menyu

***Dadlı, həm də hazırlanması rahat məhsullardan biri də ət və balıq konservləridir. Bu məhsullar yəqin ki çoxlarının dadına yetişib. Ancaq, konservləşdirilmiş qida məhsullarından istifadə etmək rahat olsa da, onlar çox qısa bir zamanda daxili orqanları narahat edir. İstənilən qida məhsulunun konservləşdirilməsində müxtəlif kimyəvi maddələrdən istifadə olunur. Bu isə ən ciddi xəstəliklərin yaranmasının başlanğıcı ola bilər.***



Hafta.az-ın “Menyu” rubrikasının bu günkü mövzusu gördüyünüz kimi konservləşdirilmiş ət və balıq məhsullarıdır. Nəzərinizə çatdıraq ki, yerli satış obyektlərində hər qiymətə konserv əldə etmək mümkündür. Belə ki bu məhsulun dəyəri 2 manatdan başlayaraq dəyişir.

■ **Elə bu amili keyfiyyətinə də şamil etmək olar. Bunu isə biz yox mütəxəssis söyləyir. Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov saytımıza açıqlamasında bildirdi ki, konservləşdirilmiş ət və balıq məhsulları ilə bağlı Azad İstehlakçılar Birliyinə demək olar ki hər ay 1-2 zəng daxil olur. Bu zaman da “konservləri necə seçmək lazımdır?”, “yararlılıq müddəti nə qədər olmalıdır?” tipli və qiymət siyasəti ilə bağlı sorğular verilir.**



**Eyyub Hüseynov,**
Azad İstehlakçılar Birliyinin sədri

Sədr deyir ki, əhali konservlərin, xüsusən də balıqdan hazırlananların təhlükəli qidalar arasında olduğunu bilməlidir. Yəni bunlardan zəhərlənmə riski böyükdür. Odur ki, konserv alan zaman bunları bilmək vacibdir: “Konservləri alan zaman üzərində yazılanlara diqqətli baxmaq lazımdır. Bütün konservlərin qablaşdırmasında "Qost" yaxud da "TŞ" yəni "texniki şərt" qeyd edilir. Yaxşı olardı ki, "Qost" yazılana üstünlük verilsin.

> *Xaricdən gətirilən mal konservləri ilə bağlı şikayətlərdə deyirlər ki, konservin içindən heyvanın yeli çıxır*

Bundan başqa dəmir qutuda qablaşdırılan belə məhsullar daha etibarlı hesab edilir. Qapağı şişmiş konservlər isə olduqca təhlükəlidir”. Bəzən istehlakçılar xüsusilə də xaricdən gətirilən məhsulların keyfiyyətindən narazılıq bildirirlər. Xaricdən gətirilən mal konservləri ilə bağlı şikayətlərdə deyirlər ki, "konservin içindən heyvanın yeli çıxır". Bütün hallarda əhaliyə yerli məhsullardan istifadə etməyi məsləhət görürəm. Çünki yerli konservlərin yararlılıq müddəti xaricdən gətirilənlərə nisbətən daha azdır”.

Bəs görəsən, "Ucuz ətin şorbası olmaz" deyimi bu yerdə də özünü doğruldurmu? Ekspert bu fikri olduqca əhəmiyyətli hesab edir:

Bu fikirlə razıyam, lakin qiymət mal haqqında tam informasiya vermir. Ola bilər ki, ən bahalı məhsul eyni zamanda ən təhlükəlidir. Çünki malın saxlanma şəraitindən çox şey asılıdır”.

Qeyd edək ki, konservləşdirmə latın sözü olmaqla (conservare) saxlamaq deməkdir. Konservləşdirilmiş məhsullar saxlanılmaya və daşınmaya davamlı olduğundan, əhalinin il boyu müxtəlif ərzaqla təchizatına imkan yaradır.

Tarixinə gəldikdə isə sənaye miqyasında konservləşdirmə üsulu XIX əsrin əvvəllərinə aid kəşfdir. Əti saxlamaq üçün Nikolya Apperin 1809-cu ildə apardığı ilk təcrübələrdən biri belə olur: o, əti deşiyi olan metal qutuya qoyub qaynadır, bişəndən sonra deşiyi lehimləyir və əti qutu ilə birgə bir daha suda qaynadır. Beləliklə, ilk konserv məhsulu alınır. Bizim dövrdə də ev şəraitində ərzağın şüşə bankalarda konservləşdirilməsi o dövrün konservləşdirməsini xatırladır. Konservləşdirmənin sənaye miqyasında geniş tətbiqi cəmiyyətin yeyinti təsərrüfatında bir inqilabdır.

✍ **Banu**



# “Mu” ştammı təhlükəli deyil

**Dünyada Britaniya və “Delta” ştammları ilə yanaşı, koronavirusun yeni növü sürətlə yayılmağa başlayıb. “Mu” adlandırılan ştamm ilk dəfə 2021-ci ilin yanvar ayında Kolumbiyada aşkar edilib.**

Yayılan digər növlərə ölkəmizdə də rast gəlinməsi Mu ştammının bizə gəlib çatmasını istisna etmir. Bəs görəsən bu yeni növ digərləri ilə müqayisədə nə dərəcədə təhlükəlidir? Mu ştammının ölüm faizi və yoluxma sürəti hansı səviyyədədir?

Məsələ ilə bağlı hafta.az-a açıqlama verən həkim-infeksionist Nicat Əzimzadə bildirdi ki, “Mu” başlanğıcda Kolumbiyada yayılan sonra isə qonşu ölkələrdə daha çox rastlanan variantdır. Təhlükəli deyil, araşdırılması lazım olan variant hesab olunur:

“B.1.621 kodu altında adlandırılan variant P681H mutasiyası ilə diqqət çəkib. Bu tipli mutasiyalar xəstəliyin letallığına və kontaqiozluguna təsir edə bilir. Buna görə "Mu" haqqında xəbərlər çoxdur. Lakin müşahidələrə əsasən qeyd edilir ki nə ölüm göstəricisi nə də yoluxma sürəti hələ təhlükəli səviyyədə deyil”. Qeyd edək ki, "Mu" ştammına indiyə qədər dünyanın 39 ölkəsində 4500-dən çox yoluxma halı qeydə alınıb.

✍ **Banu**

# “Azercell”dən şəhid və qazi övladlarına dəstək ®

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycanda Amerika Ticarət Palatası İctimai Birliyinin (AmCham Azərbaycan), “Azercell Telekom” MMC-nin və Azərbaycan Gənclərinin Nailiyyəti İctimai Birliyinin (JA Azərbaycan) tərəfdaşlığı ilə 44 günlük Vətən müharibəsinin qaziləri və şəhid ailələrinin üzvlərinə dəstək olaraq yeni sosial təşəbbüsə start verildi.***




Belə ki, “Peşəkar İnkişaf və Karyera Hazırlığı” adlı yeni layihə çərçivəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən müharibə qaziləri və vətən üçün canından keçən şəhidlərin övladlarına peşə istiqamətini seçməyə və öz potensiallarını reallaşdırmağa dəstək olan təlimlər təşkil ediləcək.

Qeyd edək ki, təlimlər onlayn şəkildə həyata keçiriləcək. Layihənin 25 iştirakçısı ingilis dili və kompüter kurslarına cəlb olunacaqlar. Bununla yanaşı, layihə çərçivəsində gənclərə peşəkar inkişaf üzrə karyera təlimləri də təşkil ediləcək. Layihə boyunca iştirakçıları yüksəksürətli mobil internet xidmətləri ilə ölkənin lider mobil operatoru Azercell təmin edəcək. Belə ki, iştirakçılara Azercell tərəfindən datakart və 6 ay ərzində 5G həcmində mobil internet paketi təqdim ediləcək. Eyni zamanda, layihənin onlayn təşkilini dəstəkləmək üçün AmCham üzvləri tərəfindən hər bir iştirakçıya kompüter də ayrılıb. Təlimlər “Celt Colleges” və “JA Azərbaycan”ın peşəkarları tərəfindən keçiriləcək. Layihəni uğurlu şəkildə başa vurmuş iştirakçılar AmCham-a üzv olan şirkətlərdə təcrübə keçmək imkanı da əldə edəcəklər. İştirakçıların siyahısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim edilib.

Azercell həm 44 günlük müharibə dövründə, həm də sonrakı müddətdə hər kəsə şərəf və ləyaqət nümunəsi olan şəhid və qazi ailələrini diqqət mərkəzində saxlayıb, xüsusi sosial layihələrin təşəbbüskarı kimi çıxış edib. Vətən müharibəsində şəhid olmuş və yaralanmış hərbçilərin faktura borcları ləğv edilib. Böyük amallar uğrunda canını fəda edən hərbçilərimizin övladlarına psixoloji dəstək məqsədilə təlimlər təşkil olunub. Həmçinin balacaların öz qəhrəman ataları haqda xatirələrindən ibarət kitab dərc olunması planlaşdırılır. Bütün Azərbaycan xalqı üçün önəmli olan bu zamanda şirkətin əməkdaşlarından ibarət “Azercell Könüllüləri” də xeyriyyə təşəbbüsləri həyata keçirərək ölkənin ictimai həyatında fəal iştirak edirlər. Fəaliyyətində milli-mənəvi dəyərləri daima yüksək tutan Azercell şirkəti bundan sonra da hünərlik zirvəsi olan şəhid və qazi ailələrinə dəstək olmağa davam edəcək.

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Gimnastika Federasiyasının baş katibi Fərid Qayıbov gənclər və idman naziri təyin olunub. F.Qayıbov 1979-cu ildə Bakıda doğulub. O, Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitunun Biznesin təşkili və idarə edilməsi fakültəsini bitirib. Yeni nazir 2003-2005-ci illərdə Azərbaycan Gimnastika Federasiyasının (AGF) idman və logistika meneceri olub. 2005-2006-cı illərdə AGF-nin baş meneceri olub. 2013-cü ildə Avropa Gimnastika İttifaqının vitse-prezidenti seçilib. Buna görə də həmin ittifaqın şura üzvlüyündən imtina edib. 2013-cü ildən Milli Olimpiya Komitəsinin üzvüdür. Fərid Qayıbov 2017-ci ildə Prezident İlham Əliyev sərəncamı ilə “Azərbaycan Respublikasının fəxri diplomu” ilə təltif edilib. Fərid Qayıbov evlidir və 3 övladı var.

### Həftənin QƏRARI



Gürcüstan parlamenti koronavirusla bağlı karantin qaydalarını pozmuş vətəndaşların cərimələrinin ləğvi ilə bağlı qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Söhbət izolyasiya, karantin qaydalarının və maska rejiminin pozulmasına görə yığılmış 76 milyon lari (təxminən 25 milyon dollar) cərimə məbləğindən gedir. Əfv 245 mindən çox vətəndaşı və 344 hüquqi şəxsi həm inzibati, həm də cinayət məsuliyyətindən azad edəcək. Qeyd edək ki, cərimələrin ləğvi təşəbbüsünü ölkənin Baş naziri İrakli Qaribaşvili irəli sürüb.

### Həftənin TƏXRİBATI



Rusiyanın satınalma sahəsi üzrə vahid dövlət portalı olan “Zakupki.gov.ru” Azərbaycana qarşı təxribata yol verib. Dövlət portalında yer alan məlumata əsasən, Azərbaycan ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin hərbi şəhərciyində xidmət barədə tender elan olunub. Elanda rus sülhməramlıların yerləşdiyi ərazi Azərbaycan ərazisi kimi deyil, “Dağlıq Qarabağ Respublikası” kimi göstərilib.

### Həftənin QAÇIŞI



Böyük Britaniyanın SAS xüsusi təyinatlı dəstəsi qadın libasında Əfqanıstandan qaçıb. Bu barədə “Daily Express” məlumat yayıb. Bildirilir ki, komandanlıq dəstəni heç bir nəqliyyatla təmin etməyərək Kabildə qoyub getdiyindən hərbçilər texnikanın çox hissəsini tərk ediblər. Onlar ələ keçməmək üçün niqabdan istifadə ediblər. Xüsusi təyinatlılar “Taliban” döyüşçülərində hər hansı şübhə oyatmayıblar.

### Həftənin MƏĞLUBİYYƏTİ



DÇ-2022-nin seçmə mərhələsində növbəti matçına çıxan Türkiyə millisi ağır məğlubiyyətlə üzləşib. Səfərdə Niderland millisinin qonağı olan Şenol Güneşin komandası rəqibinə 1:6 hesabı ilə uduzub. Bu məğlubiyyət nəticəsində Türkiyə millisi 11 xalla qrupun 3-cü pilləsinə yuvarlanıb. Aktivində 13 xal olan Niderlandla Norveç ardıcıl olaraq birinci və ikinci yerləri bölüşdürürlər.

### Həftənin MƏRHUMU



Dünya şöhrətli fransız aktyor Jan-Pol Belmondo 89 yaşında dünyasını dəyişib. Bu barədə “Frans Press” məlumat yayıb. Bildirilir ki, aktyorun öldüyünü vəkili xəbər verib. Detallar açıqlanmayıb. Qeyd edək ki, Bolmondo “Molyer”, “Qadın elə qadındır”, “Son nəfəs”, “Professional”, “Çoçara” və başqa filmləri ilə məşhurdur.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU




**İsa Bulağı tam bərpa edildi...**

# Bizi intihar, depressiya, aqressiya dalğası gözləyir

**Azad İsazadə,**
həkim-psixoterapevt, hərbi-psixoloq

Nəzərə almalıyıq ki, kəndlərdə olan qaziləri bəzən rayon mərkəzinə getməyə də imkanı olmur.

▸▸ *Səh. 7*

## STATİSTİKA



■ Orta ölçülü buludun çəkisi təxminən 500 tondur. Bu 80 filin çəkisinə bərabərdir.

■ Dünyada hər il 25 milyon insan sudan zəhərlənərək ölür.

■ İnsan orta hesabla ömrü boyu 35 ton su içir.

■ Yer üzündəki əhalinin cəmi 1 milyardı su qıtlığını hiss etmir. Hər 6 nəfərdən biri isə ömrü boyu doyunca su içmək istəyi ilə yaşayır.



▸▸ *Səh. 7*

# Ət məhsulları və yumurtanın qiyməti qalxıb